RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 267 (10012) 19 dekabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## ÖZ YOLU İLƏ GEDƏN AZƏRBAYCAN

Artıq reallığa çevrilməkdə olan Zəngəzur dəhlizinin (TRIPP) Azərbaycanın qələbəsi və fəaliyyəti sayəsində yenidən türk dövlətlərinin quru əlaqələrinin bərpasını təmin etməsi bu təşkilat üçün yeni inkişaf perspektivləri yaradır.

Cənubi Qafqazda yerləşsə də, ölkəmizin fəal qarşılıqlı fəaliyyəti sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiona çevrilib.

Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.

"Mərkəzi Asiya+" formatına keçid, cari ildən isə Azərbaycanın da Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzv statusunda iştirakı yeni reallıqlardandır.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatının da fəal üzvlərindəndir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Avropa Siyasi Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı və Ərəb Dövlətləri Liqasının tədbirlərində daim fəxri qonaq qismində iştirak edir.

Ötən il Azərbaycan 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv seçilmiş və beləliklə enerji, nəqliyyat və kommunikasiya sahələrində D-8 ölkələri ilə çoxşaxəli tərəfdaşlıqlar qurmaqla regional və beynəlxalq əməkdaşlığın mühüm iştirakçısına çevrilmişdir.

Bütün bunlar Azərbaycanın doğru və uzaqgörən siyasət yürütməsindən, Azərbaycanın dövlət başçısının yüksək beynəlxalq nüfuzundan xəbər verir.

Cənubi Qafqaz dövlətləri arasında yalnız Azərbaycanın özünəməxsus siyasi kursu, inkişaf yolu vardır!

Bu yol dövlətə və dövlətçiliyə xidmət edən yoldur!

Bu yol xalqın mənafeyinə, bu gününə və sabahına xidmət edən yoldur!

Bu yol inkişaf və tərəqqi yoludur, müstəqilliyə xidmət edən yoldur!

Bu yol haqqa, ədalətə xidmət edən yoldur!

Bu yol hazırkı və gələcək nəsillərə xidmət edən yoldur!

Yaxın qonşularımız isə hərəsi bir tərəfə baxdıqlarından hələ də öz yollarını müəyyənləşdirə, həqiqi inkişaf və tərəqqiyə nail ola bilməyiblər.

Hələ də problemlər içərisində çabalayırlar.

Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycan real müstəqilliyinin ilk günlərindən düzgün siyasi kurs müəyyənləşdirdi, düz yolla getdi!

Xalq isə bu yolun parlaq gələcəyini gördüyündən müvəqqəti çətinliklərə dözərək Heydər Əliyev siyasi kursunu daim dəstəklədi!

Bəli, bu yol asan və rahat olmadı...

Ən çətin sınaqlardan, hətta müharibə alovlarından keçən bir yol oldu.

Amma nəticədə xalqı ən ülvi istəklərinə, ən müqəddəs arzularına qovuşdurdu!

Bu gün də Azərbaycan inamla irəliyə doğru addımlayır...

Daim etibar etdiyi, güvəndiyi Heydər Əliyev siyasi kursu ilə!

Onu daim ucaldan və xoşbəxt çağlara çatdıran İlham Əliyev yolu ilə!

4

## Heydər Əliyev və Azərbaycanın Əsas Qanunu



Sovet dövründə Heydər Əliyev Azərbaycanı hər cəhətdən ön plana çıxara bildi. Ulu Öndərin uzaqgörən rəhbərliyi sayəsində sosial, iqtisadi və mədəni həyatda ən mühüm transformasiyalar uğurla həyata keçirilmiş, bu da sonralar müstəqil Azərbaycanın inkişafının sosial-iqtisadi və mədəni bazası, bünövrəsi olmuşdur. İstər sovet dövründə, istərsə də müstəqillik illərində Vətənə, xalqa sədaqətlə, ləyaqətlə xidmət etmək onun döyüş şüarı və həyat idealı olmuşdur.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirildi. Plenumda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi, başqa sözlə, respublikanın rəhbəri seçildi. Ulu Öndərdən öncə respublikaya rəhbərlik etmiş Vəli Axundov Heydər Əliyev haqqında demişdir: "Heydər Əliyevə xas olan siyasi və işgüzar keyfiyyətlər onun respublikaya ləyaqətlə rəhbərlik edəcəyinə, böyük və mürəkkəb işlərin öhdəsindən məharətlə gələcəyini deməyə imkan verir. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı, yüksək intellektə malik bir insandır. O, kadrların hamısına münasibətdə doğru mövqe tutur, çünki kifayət qədər obyektiv, dürüst və ləyaqətli insandır". V.Axundovun bu fikirləri 10 il müstəqil Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin titanik siyasi-dövlət fəaliyyətinin nəticələri ilə dəfələrlə öz təsdiqini tapmışdır. Parlaq, mənalı ömür yolu keçən Heydər Əliyev yüksək insani-mənəvi keyfiyyətlərə malik böyük tarixi şəxsiyyət xüsusiyyətlərini özündə təcəssüm etdirən mahir siyasi lider olmuşdur. Hələ 1969-1982-ci illərdə Azərbaycanın gələcək inkişafı üçün güclü kadr potensialının formalaşmasına böyük təsir göstərən elm və təhsil sahəsində səmərəli fəaliyyətin nəticəsi idi ki, müstəqillik əldə etdikdən sonra ölkəmizdə yüksəkixtisaslı mütəxəssislər qıtlığı yaşanmamışdır.

6

## İslam həmrəyliyinə əsaslanan Azərbaycan-Qətər münasibətlərinin səviyyəsi bizi sevindirir

### Qətər Dövlətinin Əmiri əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

Əlahəzrət!



Qətər Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ortaq dini-mədəni dəyərlərə, qardaşlığa, islam həmrəyliyinə əsaslanan Azərbaycan-Qətər münasibətlərinin səviyyəsi bizi sevindirir.

Əminəm ki, qarşılıqlı etimad və dəstək üzərində qurulmuş dövlətlərarası münasibətlərimizi möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

## Azərbaycan-BƏƏ enerji əməkdaşlığına "yaşıl işıq"




Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci günəş-elektrik stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə giqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır.

7

## "Dəmir iradə"nin polad yolları



Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu layihələri Qarabağın və Şərqi Zəngəzurun dirçəliş salnaməsində xüsusi yer tutur. Uzun illər dağıntı və təcrid içində qalan ərazilər üçün dəmir yolu xətləri sadəcə nəqliyyat arteriyası deyil, eyni zamanda həyata qayıdışın, inkişafın və sabaha inamın rəmzidir. Bu layihələr regiona yeni iqtisadi nəfəs verir, azad edilmiş əraziləri ölkənin ümumi təsərrüfat dövriyyəsinə qaytarır, doğma yurdlarına dönən insanlar üçün yeni yaşayış və əmək imkanları yaradır. Regionun gələcək inkişafı məhz bu polad yollar üzərindən sürətlə irəliləyir. Təbii ki, bu polad xətlər təkcə xəritədə görünən yollar deyil, Qarabağın və Şərqi Zəngəzurun canlanmasının, insanların doğma yurdlarına qayıdışının və bölgənin inkişafının göstəricisidir. Hər kilometr yol, körpü və tunel dirçəlişin gerçəkliyinin işarəsidir. Bu vaxta kimi görülən işlər Böyük qayıdışın ölçüsünü açıq şəkildə nümayiş etdirir.

8

## Aİ-nin sülh gündəliyinə zidd fəaliyyəti qəbuledilməzdir



Dekabrın 2-də Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd də göstərir ki, adıçəkilən qurum hazırda bölgədə normallaşma istiqamətində gedən proseslərlə razı deyil. Eyni zamanda dildə barış tərəfdarı olduğunu deyən Ermənistan havadarlarının dəstəyilə bu prosesə mane olmağa çalışır.

Adıçəkilən sənəddə postmünaqişə dövrünün reallıqlarının təhrif edildiyi və burada sülh gündəliyinə zidd olan məsələlərin öz əksini tapdığı açıq şəkildə görünür.

8

# "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107 (Cild I); 2024, № 11, maddə 1188) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nin 21-1-ci maddəsinin birinci hissəsinə "il" sözündən sonra "martın 31-dək" sözləri əlavə edilsin və həmin hissədə "sessiyasının beşinci iclasında" sözləri "sessiyasında" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

# Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyi münasibətilə **qərara alıram:**

Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Cavad-zadə Mir-Riad Mir-Məmməd oğlu
Eyvazov Təyyar Haşım oğlu
Əfəndiyev Akif Zahid oğlu
Meybəliyev Məmmədəli Tələt oğlu
Məmmədova Nailə Yusif qızı
Mirzə-zadə Valeh Ağasafa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 1983 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 5.7-1-ci bənd əlavə edilsin:

"5.7-1. Çevik Hərəkət Qüvvələri hərbi hissəsinin döyüş bayrağında - "Dövlət Sərhəd Xidməti Çevik Hərəkət Qüvvələri 0000 (hərbi hissənin nömrəsi) saylı hərbi hissə";".

2. 8-1 nömrəli şəkil əlavə edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2025-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 18 dekabr tarixli Fərmanına əlavə***




Şəkil 8-1. Çevik Hərəkət Qüvvələri hərbi hissəsinin döyüş bayrağı (arxa tərəf)

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 302-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1794 (Cild I); 2024, № 5 (I kitab), maddələr 516, 529, № 6, maddə 550) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın 8.1-ci bəndinə "il" sözündən sonra "martın 31-dək" sözləri əlavə olunsun və həmin bənddə "sessiyasının beşinci iclasında" sözləri "sessiyasında" sözü ilə əvəz edilsin.

2. Bu Fərman 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2025-ci il*

# "Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.üç ay müddətində aşağıdakıları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1.su obyektlərindən xüsusi məqsədlər üçün istifadə ilə bağlı ödənişlərin məbləğlərini;

2.1.2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə fiziki və hüquqi şəxslər arasında su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə dair müqavilənin formasını;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2025-ci il*

# Azərbaycan Memarlıq və İnşaat Universiteti əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illiyi münasibətilə **qərara alıram:**

1. Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Memarlıq və İnşaat Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şərəf" ordeni ilə**

Məmmədova Gülçöhrə Hüseyn qızı

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Ağayev Asəf Mirzə oğlu
Babayev Nəbi Miri oğlu
Əliyev Fəqan Qənbər oğlu
Hacıyev Müxlis Əhməd oğlu
Haqverdiyeva Tahirə Axi qızı
Mehtiyev Əlixan Qafar oğlu
Məmmədov Nurməmməd Yaşar oğlu
Şirinzadə İradə Nüsrət qızı

**"Tərəqqi" medalı ilə**

Abdullayeva Nərgiz Cavad qızı
Aslanov Telman İmran oğlu
Aslanova Nigar Məhər qızı
Danyalov Şəfi Danyal oğlu
Əhmədova Salatın Alı qızı
Əkbərova Samirə Misirxan qızı
Əliyev Ramiz Dadaş oğlu
Əliyeva Səlmi Saleh qızı
Fərzəliyev Sahib Abduləli oğlu
Həsənov Fərzəli Həsən oğlu
Hüseynov Hüseynağa İbrahim oğlu
Hüseynova Rəna Ömər qızı
İskəndərov Ramiz Əziz oğlu
Qasımov Akif Fazil oğlu
Quliyeva Əzizə Mürsəl qızı
Məmmədov Sabir Baladin oğlu
Musayeva Nailə Fuad qızı
Naqdiyev Əcəm Özübəy oğlu
Nəbiyev Aydın Xalıq oğlu
Sazairov Əmirxan Bəhsət oğlu
Yusifzadə Elçin Nazim oğlu.

2. Azərbaycanda təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Nağıyev Nizami Həsən oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2025-ci il*

# AzMİU-nun 50 illik yubileyi qeyd olunub

Dekabrın 18-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) yaradılmasının 50 illik yubileyi münasibətilə təntənəli yığıncaq keçirilib. Bu əlamətdar tarixin qeyd olunması təkcə bir ali təhsil müəssisəsinin yarıməsrlik fəaliyyət yoluna nəzər salmaq deyil, eyni zamanda Azərbaycanda memarlıq və inşaat təhsilinin formalaşması, milli mühəndislik məktəbinin inkişafı və dövlətçilik ənənələrinin təhsildə təcəssümünün rəmzidir.





AZƏRTAC xəbər verir ki, yubiley tədbirindən öncə AzMİU-nun rəhbərliyi, professor-müəllim heyəti və əməkdaşları Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, onun AzMİU-nun yaradılmasındakı müstəsna xidmətlərini, ali təhsil və milli kadr hazırlığı prosesinə böyük qayğısını dərin ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.

Universitet kollektivi daha sonra Şəhidlər xiyabanını ziyarət edib, Vətən uğrunda canını fəda edən şəhidlərin məzarları üzərinə gül dəstələri qoyub.

Rəsmi tədbirdən öncə "Gülüstan" sarayında təşkil olunan "Təhsil və irs" sərgisinə baxış keçirilib. Sərgidə universitetin zəngin tarixi irsi, keçdiyi inkişaf mərhələləri, elmi-pedaqoji nailiyyətləri və müasir inkişaf strategiyası təqdim olunub.

Yubiley yığıncağı Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Mərasimdə dövlət və hökumət rəsmiləri, deputatlar, Elm və Təhsil Nazirliyinin rəhbər şəxsləri, yerli və xarici tərəfdaş ali təhsil müəssisələrinin rəhbərləri, tanınmış elm və mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri, AzMİU-nun professor-müəllim heyəti, əməkdaşları və məzunları iştirak ediblər.

Tədbirdə çıxış edən rektor memarlıq doktoru, professor Gülçöhrə Məmmədova bildirib ki, AzMİU-nun 50 illik yubileyi universitetin keçdiyi şərəfli yola, formalaşdırdığı elmi məktəbə və ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə nəzər salmaq üçün bir fürsətdir. Rektor qeyd edib ki, 50 illik yubileyin qeyd edilməsi həm də ölkəmizdə memarlıq və inşaat təhsilinin inkişafına dövlət qayğısının, milli mühəndislik məktəbinin formalaşmasına göstərilən xüsusi diqqətin bariz nümunəsdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra ölkəmizin hərtərəfli inkişaf dinamikasının daha da sürətləndiyini vurğulayan rektor son illərdə təhsil sahəsində həyata keçirilən islahatlara diqqət çəkib. Təhsilin qabaqcıl beynəlxalq standartlara uyğunlaşdırılması, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, universitet-sənaye əməkdaşlığının genişləndirilməsi, rəqəmsal və hibrid tədris modellərinin tətbiqi, eləcə də insan kapitalının inkişafına yönəlmiş məqsədyönlü siyasətin AzMİU-nun inkişafına təsirindən danışıb.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan böyük quruculuq işləri, şəhərsalmanın vüsət alması, "ağıllı şəhər", "yaşıl memarlıq", enerji effektli tikinti kimi çağdaş yanaşmalar memarlıq və inşaat təhsilinə yeni tələblər formalaşdırır. AzMİU bu çağırışlara cavab vermək üçün yenilənmiş təhsil proqramları, mütəxəssis hazırlığının yeni strukturu, gücləndirilmiş elmi baza, beynəlmiləlləşmə və rəqəmsal transformasiya istiqamətində ardıcıl addımlar atır", - deyə professor Gülçöhrə Məmmədova əlavə edib.

Rektor çıxışında yubiley ərəfəsində AzMİU-nun seçdiyi devizə də diqqət çəkib: "Əsrə bərabər 50 il" devizini seçməyimiz təsadüfi deyil. Bu yarım əsr təkcə universitetin yaşı deyil - Azərbaycanın sürətli inkişaf yoluna verilmiş töhfələrin, minlərlə memar və mühəndisin yetişdirilməsi ilə formalaşan intellektual gücün, ölkənin quruculuq və bərpa işlərində ön sıralarda dayanmağının ifadəsidir. Eyni zamanda bu, 1920-ci ildə yaradılmış İnşaat fakültəsindən başlayaraq, toplanmış bütün təhsil təcrübəsinin və nailiyyətlərin universitetin bünövrəsini təşkil etməsinin göstəricisidir".

Professor Gülçöhrə Məmmədova 50 il ərzində universitetdən 70 mindən çox memar, inşaat, nəqliyyat, hidrotexniki və meliorativ tikinti mühəndisinin məzun olduğunu deyib: "Respublikanın, demək olar ki, bütün iri tikinti layihələrində, şəhərsalma planlaşdırılmasında, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasında AzMİU məzunlarının imzası var. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərinin əsas icraçıları, layihə rəhbərləri, sahə mühəndisləri də məhz bizim məzunlardır. Bu fakt bir daha sübut edir ki, AzMİU yalnız təhsil müəssisəsi deyil, ölkənin inkişaf strategiyasının həyata keçirilməsində rolu olan milli intellekt mərkəzidir".

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında Azərbaycan Memarlıq və İnşaat Universitetinin ölkənin mühəndislik və memarlıq potensialının formalaşmasında aparıcı ali təhsil ocaqlarından biri kimi mühüm rol oynadığını vurğulayıb. Nazir qeyd edib ki, universitetin çoxillik elmi-pedaqoji ənənələri, müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığı və innovativ yanaşmaları AzMİU-nu ölkənin strateji təhsil mərkəzlərindən birinə çevirib.

Bildirilib ki, AzMİU-da həyata keçirilən təhsil islahatları, beynəlxalq akkreditasiyalar və xarici ali məktəblərlə qurulan əməkdaşlıqlar universitetin qlobal ali təhsil məkanında mövqeyinin möhkəmlənməsinə xidmət edir. Nazir beynəlxalq reytinqlərdə əldə olunan nəticələrin məqsədyönlü fəaliyyətin göstəricisi olduğunu, bu nailiyyətlərin həm akademik keyfiyyətin yüksəldilməsi, həm də elmi tədqiqatların genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Emin Əmrullayev bildirib ki, inkişafın birinci əsas meyarı rəqabət və ədalət prinsiplərinin təmin edilməsidir. Bu prinsiplər sağlam akademik mühitin formalaşmasına və davamlı tərəqqiyə zəmin yaradır.

Nazir qeyd edib ki, inkişafın ikinci mühüm meyarı əməkdaşlıqdır. AzMİU-nun yubiley mərasimində yerli və xarici ali təhsil müəssisələrinin, dövlət qurumlarının, elmi təşkilatların nümayəndələrinin geniş tərkibdə iştirakı universitetin əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu nümayiş etdirir.

Emin Əmrullayevin sözlərinə görə, elmi tədqiqatların keyfiyyətinin artırılması təhsilin keyfiyyətinə birbaşa müsbət təsir göstərir. AzMİU-da bu istiqamətdə aparılan məqsədyönlü fəaliyyət də ali təhsilin məzmununun zənginləşdirilməsinə və rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasına xidmət edir.

Nazir AzMİU-nun mühüm sosial və strateji layihələrdə fəal iştirakını xüsusi qeyd edib. Bildirib ki, Kəlbəcər şəhərində orta məktəbin tikintisi, eyni zamanda Qarabağ Universitetinin inşası zamanı AzMİU-nun mühəndislərinin göstərdiyi fəallıq bu gün 50 illiyini qeyd edən ali təhsil ocağının işğaldan azad olunmuş ərazilərin bərpasına verdiyi töhfənin bariz nümunəsidir.

Daha sonra AzMİU-nun 50 illik inkişaf yolunu, elmi-pedaqoji nailiyyətlərini və gələcək strateji hədəflərini əks etdirən təqdimat filmi nümayiş etdirilib.

Rəsmi hissənin davamında yubiley münasibətilə universiteti təbrik edən qonaqlar çıxış edib, Azərbaycan Memarlıq və İnşaat Universitetinin ötən illər ərzində qazandığı zəngin təcrübə və formalaşdırdığı güclü elmi-tədris mühiti barədə ətraflı söz açıblar. Qonaqlar universitetin milli ali təhsil sistemində tutduğu mövqeyi yüksək qiymətləndiriblər.

Tədbirin sonunda Azərbaycan Memarlıq və İnşaat Universitetinin inkişafına töhfə vermiş tərəfdaş qurumlar səmərəli əməkdaşlığa görə universitet rəhbərliyi tərəfindən təltif olunublar.

AzMİU-nun 50 illik yubileyinin qeyd edilməsi universitetin tarixində yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, Azərbaycanın mühəndislik, memarlıq və dizayn təhsilinin gələcək inkişafı üçün möhkəm təməl yaradır. Bu yubiley ölkənin insan kapitalının inkişafına yönəlmiş dövlət siyasətinə verilən töhfənin və AzMİU-nun milli intellekt mərkəzi kimi rolunun bir daha təsdiqidir.

## “Beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi Qaydası”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 395** **Bakı şəhəri, 17 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 iyul tarixli 673 nömrəli Sərəncamının 3.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.
2. Bu Qərar 2025-ci il sentyabrın 15-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 396** **Bakı şəhəri, 17 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 iyul tarixli 673 nömrəli Sərəncamının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.
2. Bu Qərar 2025-ci il sentyabrın 15-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 402** **Bakı şəhəri, 18 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 yanvar tarixli 914 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 iyun tarixli 426 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443; 2025, № 2, maddələr 187, 201; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 356 nömrəli və 3 dekabr tarixli 370 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın 13-cü hissəsinə "Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi və onun müavini," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı"





"Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Texniki Universitetinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı" adlı tədbir keçirilib.

Tədbirdən öncə universitetin inzibati binasında müasir müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev qeyd edib ki, dövlət idarəçiliyində liderin fəaliyyəti uğurlu inkişafın əsası olmaqla bərabər, həm də sabitliyin möhkəmləndirilməsi, davamlı yüksəlişin təmin edilməsi və vətəndaş cəmiyyətinin bərqərar olması baxımından çox mühüm amildir: "Prezident İlham Əliyevin "Bizim sözümüz imzamız qədər dəyərlidir" fikri Onun verdiyi vədlərin əməli fəaliyyətdə öz əksini tapdığını göstərir. Dövlətimizin başçısının xalqa verdiyi vədləri yerinə yetirməsinin ən parlaq nümunəsi torpaqlarımızın işğaldan azad olunması və üçrəngli bayrağımızın bütün ərazilərimizdə ucaldılmasıdır. Hər bir azərbaycanlının Prezidenti olacağını vəd edən və ötən müddət ərzində sözünün sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə sübuta yetirən Prezident İlham Əliyev xalqın yüksək rəğbət və məhəbbətini qazanıb. Dövlət başçısının Azərbaycanın milli maraqlarını daim uca tutması xalqımızı Onun ətrafında sıx birləşdirib".

V.Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ölkənin inkişafında, eləcə də milli maraqların qorunmasında öz əksini tapır: "Bu siyasət həm də Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar qazandırmış daxili və xarici siyasəti Azərbaycanı dünyada sabitlik adasına, multikulturalizm mərkəzinə, qlobal tədbir və görüşlərin keçirildiyi təhlükəsiz məkana çevirib. Əminliklə demək olar ki, Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın daha da güclənməsinə xidmət edəcək".

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, çağdaş Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları ilə bağlıdır: "Ulu Öndər Heydər Əliyev milli maraqlara əsaslanan uzaqgörən siyasəti ilə Azərbaycanın müstəqilliyinin daimiliyi, dönməzliyi və əbədiliyini təmin etməklə xalqımıza çoxsaylı uğurlar qazandırmışdır. Bu gün iftixarla qeyd edirik ki, hər birimizin sonsuz qürur mənbəyi olan müasir Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin millətimizə ən böyük mənəvi-siyasi mirasıdır".

Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Ulu Öndərin tükənməz dövlətçilik irsini müasir çağırışlara uyğun zənginləşdirərək həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilmiş, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanınmışdır: "Ən əsası, iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və tam suverenliyini bərpa etməklə Zəfər zirvəsinə yüksəlmişdir. Ata vəsiyyətini və xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirən Prezident İlham Əliyev Azərbaycanı Ulu Öndərimizin görmək istədiyi qalib və qüdrətli dövlətə çevirməklə bərabər, strateji hədəfləri ardıcıl olaraq gerçəkləşdirərək nəinki ölkəmiz, bütövlükdə regionumuz üçün yeni perspektivlər yaratmışdır".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil və qətiyyətli siyasəti ölkəmizdə ictimai-siyasi sabitliyin və milli birliyin qorunmasına, sosial-iqtisadi inkişafın davam etməsinə, əhalinin rifahının daha da yaxşılaşmasına, Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın uğurla həyata keçirilməsinə və nəhayət, bölgədə sülh, təhlükəsizlik və çoxşaxəli əməkdaşlığın bərqərar olmasına hədəflənmişdir: "Ulu Öndərimizin dahiyanə söylədiyi bir fikir var: "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində Prezident İlham Əliyev müasir, suveren, bütöv və yeni Azərbaycanı qurub. Şübhə yoxdur ki, öz Müzəffər Liderinin ətrafında sıx birləşən xalqımız bundan sonra da milli məqsədlərə nail olaraq daha qüdrətli Azərbaycan naminə yeni qələbələrə imza atacaqdır".

Sonra çıxış edənlər Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində qazanılan uğurlardan bəhs ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş universitet əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib. Daha sonra Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

Sonda bədii hissə təqdim olunub və xatirə şəkli çəkdirilib.

***"Azərbaycan"***

# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq tədbirdə iştirak edir

Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qətər Dövlətinin paytaxtı Doha şəhərində BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyasında iştirak edir.



Tədbir çərçivəsində baş prokuror BMT-nin Korrupsiyaya qarşı Mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) panel müzakirələrinə qatılıb. Şəbəkənin rəhbərliyi Azərbaycanın qurumun fəaliyyətinə verdiyi mühüm töhfəyə görə təşəkkür edib.

Baş prokuror çıxış edərək bildirib ki, ölkəmiz korrupsiyaya qarşı mübarizə sahəsində BMT və digər beynəlxalq təşkilatların layihələrinin aktiv iştirakçısı olmaqla xarici tərəfdaşlarla əməkdaşlığa mühüm əhəmiyyət verir. Qlobal Əməliyyat Şəbəkəsinin cari ilin may ayında Bakı şəhərində baş tutmuş 6-cı Plenar Sessiyası xüsusilə məhsuldar olub.

Belə ki, 90-dan artıq ölkənin 300-dən yuxarı nümayəndəsinin bir araya gəldiyi görüşlərdə təsisatın fəaliyyəti üçün təməl təşkil edən şəbəkə üzvləri arasında məlumat mübadiləsinin Nümunəvi Razılaşması və Aparıcı Göstərişlər məhz Bakıdakı müzakirələr nəticəsində qəbul edilib.

Bununla yanaşı, assambleyanın plenar iclasına paralel olaraq Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) və Yaşıl İqlim Fondunun birgə təşkilatçılığı ilə ətraf mühitin qorunması ilə bağlı müxtəlif məsuliyyət tədbirlərinə həsr edilmiş xüsusi sessiya keçirilib.

Sessiyada çıxış edən Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev ölkəmizin prokurorluq orqanları tərəfindən ətraf mühitin mühafizəsi ilə əlaqədar qanunvericiliyin tələblərinin pozulmasının qarşısının alınmasına yönəlmiş preventiv tədbirlər, eləcə də pozuntu hallarına görə tətbiq edilən məsuliyyət tədbirləri barədə geniş məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Assambleyanın plenar iclasının növbəti günündə səsvermələr nəticəsində assambleya sədrinin Şərqi Avropa regionu üzrə müavini seçilmiş Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, BMT-nin Vyana şəhərindəki bölməsi, ATƏT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli sədrlik edib.

Plenar sessiyada iştirakçı ölkələrin nümayəndə heyətlərinin korrupsiyaya qarşı mübarizə üzrə milli səviyyədə həyata keçirilmiş tədbirlərlə bağlı hesabat məruzələri dinlənilib.

Assambleya dekabr ayının 19-dək öz işini davam etdirəcəkdir.

# Dövlət Statistika Komitəsinin sədri BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi ilə görüşüb

Dekabrın 18-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi xanım Vladanka Andreyeva arasında görüş keçirilib.



Görüşdə bünövrəsi Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən keyfiyyətcə yeni mərhələyə yüksəldilmiş ölkəmizlə BMT arasındakı əməkdaşlıqdan, bu əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin, xüsusilə də "2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nin icrasının, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının, "Milli Dayanıqlı İnkişaf Məqsədlərinin Monitorinq Sistemləri üzrə BMT-DSK Birgə İşçi Qrupu"nun yaradılmasının, BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) və Dövlət Statistika Komitəsi arasındakı əməkdaşlıq çərçivəsində "DİM-lər üçün məlumatların dezaqreqasiyası" adlı praktiki vəsaitin hazırlanmasının statistikanın inkişafı istiqamətində mühüm addımlardan olduğu qeyd edilmişdir. BMT-nin Uşaq Fondunun dəstəyilə 2023-cü ildə keçirilmiş Çoxgöstəricili Klaster Sorğusu nəticəsində 18 DİM göstəricisi üzrə məlumatların əldə edildiyi bildirilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında imzalanmış 2026-2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (UNSDCF) müzakirə edilmiş, milli statistika sistemlərinin gücləndirilməsi, DİM-lərin monitorinqi və hesabatlılığı istiqamətində fikir mübadiləsi aparılmışdır.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ölkəmizdə fəaliyyəti başa çatan BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi xanım Vladanka Andreyevaya faydalı əməkdaşlıq üçün təşəkkür etmiş və gələcək fəaliyyətində uğurlar arzulamışdır.

BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi xanım Vladanka Andreyeva səmimi görüşə görə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova öz minnətdarlığını bildirmişdir.

***"Azərbaycan"***

# 17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası davam edir

17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı Levent Ergünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri davam edir.

Dekabrın 18-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik K.Vəliyev Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyini qeyd edib. Hərbi qulluqçuların bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə keçirilən birgə təlimlərin intensivliyinin artırılmasının zəruriliyini bildirib.

Ordu generalı L.Ergün Bakıda iki gündür davam edən 17-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında icra olunan fəaliyyətlərin yeni imkanların formalaşmasında müsbət təsirindən danışıb, hərbi əlaqələrimizin daha da genişləndirilməsində qarşılıqlı səfərlərin vacibliyini vurğulayıb.

Görüşdə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının cari vəziyyəti təhlil edilib, maraq doğuran məsələlər və perspektiv planlara dair geniş müzakirələr aparılıb.

# MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası keçirilib

Dekabrın 18-də Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının videokonfrans formatında növbəti 74-cü iclası keçirilib.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun sədrliyi ilə keçirilən videokonfransda MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, MDB baş katibinin müavini, Avrasiya İqtisadi Komissiyasının Statistika Departamentinin direktor müavini, üzv dövlətlərin statistika qurumlarının rəhbərləri və rəhbər müavinləri iştirak ediblər.

Şuranın iclasında "MDB Statistikasının İnkişafı" layihəsinin gedişatı və bu layihənin 2026-cı il üçün iş planı, Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Statistika Komitəsinin 2026-cı il üçün İş Proqramı, MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasına 2026-cı ildə sədrlik və şuranın 75-ci iclası haqqında məsələlər müzakirə edilib, həmçinin MDB Üzv Dövlətlərinin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası haqqında kommünike qəbul olunub.

***"Azərbaycan"***



# ÖZ YOLU İLƏ GEDƏN AZƏRBAYCAN

Yollar cığırlardan başlayır.

Amma hər cığır da yola çevrilmir.

Cığırı yola insanlar çevirir...

Öz işləri, əməlləri ilə, məqsəd və hədəflərinə doğru irəliləyərkən!

Yolların rahatı, kələ-kötürü, təhlükəsizi və sıldırımlı dağlardan keçənləri də olur.

Bəzən yollar gəlib bir uca dağa dirənə də bilirlər.

Bu zaman onu ya yamaclara dolandıraraq dağa qaldırır, ya da tunel çəkərək dağ maneəsini dəf edirlər.

*Yolların insanları rahat və sürətlə mənzil başına çatdırmaları onu çəkənlərin məharət və uzaqgörənliyindən xeyli dərəcədə asılıdır.*

**Yollarla təkcə insanlar və maşınlar getmirlər.**

**Bəzən elə nəhəng yollar olur ki, bütöv bir ölkələr, dövlətlər həmin yolla addımlayırlar!**

*Buna inkişaf, tərəqqi, dövləti və xalqı məqsədinə çatdıracaq yol da deyirlər!*

**Belə yolları isə dahilər, qeyri-adi insanlar, dövlət başçıları, siyasi liderlər və rəhbərlər müəyyənləşdirirlər.**

❖ ❖ ❖

İlk dəfə Azərbaycan 1918-ci il mayın 28-də öz yolunu müəyyən etmək imkanı qazandı.

Lakin nə özünə düz-əməlli yol müəyyən edə bildi, nə də həmin yolu yaşatmağı bacardı.

*XI Qırmızı Ordu cəmi 23 ay ömür sürmüş Azərbaycanın özünə də son qoydu, yoluna da.*

**Könüllü adı altında ölkə SSRİ adlı qırmızı imperiyanın tərkibinə qatılaraq "on beş qardaşdan biri"nə çevrildi.**

**Özgə yolla, başqalarının müəyyən etdiyi istiqamətdə getməyə məcbur edildi.**

Bu yolun "uzunluğu" isə təqribən 70 il oldu.

Döngələri, dönümləri, sürət və dayanacaqları özü yox, özgələr müəyyən etdi.

*Hər yolun başlanğıcı olduğu kimi, sonu da var.*

*Bu yol isə sona çatmadı, yarıda qırıldı...*

**Təəssüf ki, bu qırılmada yolsuzluq başladı...**

**Xalqımız üçün bir çox itki, faciə, fəlakətə çevrilən yolsuzluq...**

**Çünki xalq öz sevimli rəhbəri Ulu Öndər Heydər Əliyevdən aralı düşmüşdü.**

*Həmin dövrdə isə Azərbaycana məsuliyyət yükünü çəkə bilməyənlər, maymaqlar, qorxaqlar, qətiyyətsizlər, təcrübəsizlər və səriştəsizlər, bir sözlə, karyera hərisliyini, şəxsi maraqlarını xalqın mənafeyindən üstün tutanlar başçılıq etməyə başladılar.*

Mərkəzə qul itaəti göstərənlər kim, dağılan SSRİ-ni yaşatmaq üçün "yamaq referendum" keçirən kim, dar ayaqda postunu ataraq müxtəlif istiqamətlərə qaçanlar kim!

**Meydan qəhrəmanları, parlament çevrilişi yolu ilə hakimiyyəti qəsb edən "bəylər"in iqtidara gəlişi isə əslində, yeni faciələrin başlanğıcına çevrildi.**

*Olmayan "atom bombaları" ilə, Yakutiyaya bayraq sancacaqları ilə hədə-qorxu gələnlər "rüşvətin qarşısında duruş gətirə bilmədilər".*

Nə istədikləri özlərinə belə aydın olmayan, məqsədə çatmaq yolları və vasitələri qeyri-müəyyən görünən AXC-Müsavat cütlüyü nəinki xalqa doğru-düzgün yol göstərə bildi, əksinə, dövləti məhvolma həddinə çatdırmaqla xaos və anarxiya, qanunsuzluq bataqlığı yaradaraq özləri də həmin bataqlıqda boğuldular.

**Xalqın yeganə ümidi sınanmış oğluna - Ulu Öndər Heydər Əliyevə idi.**

**Odur ki, onu yenidən ölkə rəhbərliyinə dəvət etdi!**

Azərbaycanın əsl xilaskarına çevrilən Ümummilli Liderimiz qısa müddətdə ölkə daxilindəki başıpozuqluqlara son qoydu, möhkəm və dönməz sabitlik yaradaraq müstəqilliyimizi əbədiliyə çevirdi!

Həm də cari, təxirəsalınmaz işlərlə uzaq hədəflərimizi məharətlə uzlaşdıra, əlaqələndirə bildi.

**Azərbaycanı təkcə fəlakətlər burulğanından çıxarmadı, həm də onun sürətli, daimi və davamlı inkişafını təmin edəcək siyasi kurs müəyyənləşdirdi!**

**Heydər Əliyev siyasi kursunu!**

❖ ❖ ❖

*Azərbaycanın yeni ərazilər itirəcəyinin qarşısını alan atəşkəsin imzalanmasına nail olan, ölkə iqtisadiyyatı üçün lokomotiv rolunu oynayan "Əsrin müqaviləsi"ni imzalatdıran, hərbi əməliyyatlar başlanan dövrdən sonra ilk dəfə 1994-cü ilin yanvarında Horadiz qarışıq 22 kəndin geri qaytarılmasına nail olan Ulu Öndər Heydər Əliyev ən layiqli siyasi varisini yetişdirərək əbədiyyətə qovuşdu.*

**Azərbaycana rəhbərliyi dövründə cənab İlham Əliyev nəinki ata vəsiyyətlərini şərəflə yerinə yetirdi, üstəlik, bu yolu uğurla davam və inkişaf etdirməklə yeni zəfər və nailiyyətlərlə daha da zənginləşdirdi:**

* Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars transmilli layihələrini gerçəkləşdirdi;
* "Cənub qaz dəhlizi" layihəsini reallaşdıraraq Azərbaycanı qaz idxalçısından təbii qaz ixracatçısına çevirdi;
* Ələt Beynəlxalq Dəniz Limanını inşa etməklə heç bir dənizə birbaşa çıxışı olmayan Azərbaycanı beynəlxalq logistika mərkəzi etdi;
* Tarixinin ən qüdrətli Azərbaycanının müəllifi oldu;
* Beynəlxalq qurum və təşkilatlarda fəaliyyət gücləndirildi, Azərbaycanın siyasi nüfuzu və çəkisi xeyli artırıldı;
* Yeni gənclər nəsli tərbiyə olundu, onların da iştirak etdiyi müasir ordu quruldu;
* Ordu ən yeni texnologiyalara əsaslanan silahlarla silahlandırıldı, dördgünlük Aprel müharibəsində şərəfli sınaqdan çıxdı.

Lakin bütün bunlar hələ görüləcək işlərin bir qismi idi.

*Qarşıda duran ən mühüm vəzifə işğal altındakı torpaqları azad etmək, ərazi bütövlüyünə nail olmaq idi.*

**Nəyi nə vaxt və necə etməyi hamıdan gözəl bilən cənab İlham Əliyev bu vəzifənin də öhdəsindən ləyaqətlə gəldi!**

Bu dəfə onun yaratdığı möhtəşəm ordu 44 gün ərzində Azərbaycan tarixinin ən möhtəşəm hərbi zəfərinə imza atdı!

Düşmən ordusu darmadağın edilərək diz çökdürüldü, kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamağa məcbur edildi!

Lakin məsələ bununla da bitmədi.

Havadarlarına güvənən düşmən götürdüyü öhdəliklərdən boyun qaçırmaq niyyətinə düşdü!

Azərbaycan Ordusu daha iki unikal vadaretmə əməliyyatı keçirdi:

* Əvvəlcə 2023-cü il aprelin 23-də ani əməliyyatla Həkəri çayı üzərindəki erməni postu ələ keçirildi və beləliklə, "Laçın qapısı" əbədi qapadılaraq ərazi bütövlüyümüz tam təmin edildi.
* Həmin il sentyabrın 19-20-də isə antiterror tədbirləri nəticəsində 23 saat ərzində ərazimizdəki qeyri-qanuni silahlı birləşmələr və terrorçu tör-töküntülər ağ bayraq qaldıraraq təslim olmağa vadar edildi, Azərbaycan qanunlarına itaət etməyərək onun əsasında yaşamaq istəməyənlərin isə ölkəni tərk etmələrinə şərait yaradıldı.

*Bununla da hərbi yolla, silah gücünə görülən bütün işlər başa çatdırıldı.*

Daha bir mühüm problem isə danışıq və razılaşma yolu ilə öz həllini tapdı.

**Rusiya sülhməramlı kontingenti 12 iyun 2024-cü ildə görəcəyi bir iş qalmadığından musiqi sədaları altında Azərbaycan ərazisini tərk etdi.**

Bununla da Azərbaycan öz ərazisində bir nəfər də olsun separatçının və əcnəbi əsgərin olmadığı nadir dövlətlərdən birinə çevrildi!

❖ ❖ ❖

*Əsas problemini uğurla həll edən Azərbaycan yoluna davam etməklə bərabər, yeni vəzifələrin uğurlu həllinə də başladı.*

Qalib dövlət olsa da, məğlub tərəfi sülh müqaviləsi bağlamağa çağırdı, beynəlxalq hüquqa əsaslanan sülh şərtlərini bəyan etdi.

Bununla da Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsinə ən dəyərli töhfəsini vermiş oldu.

**Ermənistanın bütün ikibaşlı oyunlarına, gündə bir ağıla qulluq etməsinə baxmayaraq, ABŞ-dəki 8 avqust görüş və razılaşmalarında bütün məsələlərə son qoyuldu!**

Azərbaycan istəklərinə çataraq yolunu daha uğurla getməkdə davam edir!

*Bu yol isə inkişaf və tərəqqi yoludur, dövlətin iqtisadi qüdrətinin və siyasi nüfuzunun daim yaxşılaşmasına, xalqın rifahının yüksəlməsinə, beynəlxalq transmilli layihələrin səmərəli fəaliyyətinə imkan yaradan yoldur!*

❖ ❖ ❖

*Zəfər müharibəsindəki möhtəşəm qələbədən sonra Azərbaycan öz inkişafını və fəaliyyətini iki mühüm istiqamətdə davam etdirir.*

**Yaxın hədəfdəki əsas vəzifələr bunlardır:**

* *"Böyük qayıdış" proqramını uğurla həyata keçirməklə keçmiş məcburi köçkünləri sürətlə doğma yurda qaytarmaq.*
* *Yeni layihələrin reallaşdırılması, habelə mövcud imkanlardan səmərəli istifadə etməklə dövlətin iqtisadi gücünü, siyasi nüfuzunu və xalqın rifahını daha da yüksəltmək.*

Artıq beş ildir ki, azad olunan ərazilərdə bərpa və yenidənqurma işləri sürətlə davam edir.

Qarabağ və Şərqi Zəngəzur ilbəil deyil, aybaay tikilib qurularaq keçmiş sakinlərini qoynuna alır.

**Statistik rəqəmlərə nəzər salaq:**

* Geriyə qayıdışı əngəlləyən ən böyük maneə ərazilərin minalarla hədsiz dərəcədə çirkləndirilməsi, Ermənistanın əsl xəritələri bizə verməməsi və bu səbəbdən yaranan vaxt itkisidir;
* *2020-2025-ci illər ərzində Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) və digər aidiyyəti qurumların, həmçinin yerli şirkətlərin birgə əməliyyatları nəticəsində 240 min hektardan artıq ərazi təmizlənib, 227 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib;*
* 2020-2025-ci illərdə şəhərsalma və yaşayış məntəqələrinin bərpası istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirilib. "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı" 2022-ci ildə Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənib. 8 şəhərin Baş planı və 3 şəhərin müfəssəl planı, 12 rayon üzrə 91 yaşayış məntəqəsinin şəhərsalma əsaslandırması artıq təsdiqlənib, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin planları işlənmə mərhələsindədir.
* İşğaldan azad olunmuş ərazilərdə "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyalarına əsaslanan, sosial ədalətli və dayanıqlı məskunlaşma modeli formalaşıb ki, bu həm postmünaqişə dövrü siyasətinin, həm də milli birliyin bərpasının mühüm göstəricisidir.
* Bu vaxta kimi 6 şəhər, 2 qəsəbə və 22 kənd olmaqla, ümumilikdə 30 yaşayış məntəqəsinə əhalinin köçürülməsi həyata keçirilib. Hazırda azad olunmuş ərazilərdə 62 mindən çox insan yaşayır, fəaliyyət göstərir və təhsil alır. Onların istifadəsinə müasir sosial infrastruktur - məktəblər, bağçalar və mədəniyyət obyektləri verilib.
* Regionun təbii sərvətlərindən istifadəyə başlanıb. "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye parklarında 50 rezident və 7 qeyri-rezident müəssisə qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat investisiya yatırılıb və 1057 iş yeri yaradılıb. Parklarda fəaliyyətə başlamış rezidentlər tərəfindən 950 milyon manata yaxın məbləğdə məhsul istehsal olunub, Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlığı ixrac olunub. Sahibkarlığa vergi və gömrük güzəştləri tətbiq olunur, KOB-lar üçün hüquqi və maliyyə dəstəyi göstərilir.
* Turizm sektoru da iqtisadi reinteqrasiyanın vacib hissəsidir, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi və demoqrafik vəziyyətini, eyni zamanda turizm və rekreasiya potensialını əks etdirən turizm əsaslı inkişaf konsepsiyaları hazırlanır, mehmanxanalar, parklar və istirahət kompleksləri inşa edilir, Şuşa, Suqovuşan, Laçın və digər istiqamətlərə turist səfərləri təşkil olunur.
* Azad edilmiş ərazilərdə 1500-dən çox fərdi evdə və ictimai binalarda Günəş panelləri quraşdırılıb. Beynəlxalq tərəfdaşlarla layihələr genişlənir, məsələn, BP şirkəti ilə Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsi icra olunur.

Proqnozlara görə, yaxın illərdə bərpa olunan enerjinin istehsal gücü 600 MVt-a çatdırılacaq. Bu isə regionun enerji müstəqilliyini təmin etməklə yanaşı, Azərbaycanın enerji balansında "yaşıl enerji"nin payını artıracaq və karbon emissiyalarını azaldacaq:

* İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında elektrik enerjisi infrastrukturu genişmiqyaslı şəkildə bərpa olunub. 14 elektrik yarımstansiyası istismara buraxılıb, 1000 km.-dən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilərək 12 yeni 110 kV-luq yarımstansiya zəncirvari şəkildə birləşdirilib və dairəvi təchizat sistemi yaradılıb. Bu sistem 330 kV-luq yarımstansiyalarla əlaqələndirilərək regionun enerji ehtiyaclarını tam təmin edir. Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərən 38 su-elektrik stansiyası 307 MVt güc təmin edərək ölkənin vahid enerji sisteminə inteqrasiya olunub.
* Qaz təchizatı sahəsində 6 magistral qaz xətti çəkilib, 9 qazpaylayıcı stansiya və 1 qaztənzimləyici məntəqə inşa olunub, 8 şəhərə, 20 kənd və 1 qəsəbəyə qazın verilməsi təmin olunub.
* 19 ümumi, 13 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Onlardan 16 ümumi və 7 məktəbəqədər təhsil müəssisəsi hazırda fəaliyyət göstərir. Təhsil müəssisələrində 3700-ə yaxın şagird və 260-dan çox uşaq təhsil alır, ümumilikdə 500 müəllim və texniki işçi fəaliyyət göstərir.
* İşğaldan azad edilmiş ərazilərdə 2020-2025-ci illərdə nəqliyyat infrastrukturu üzrə də böyük layihələr icra olunub. Füzuli, Zəngilan və Laçında beynəlxalq standartlara uyğun hava limanları inşa edilərək istifadəyə verilib. Bu limanlara IATA kodları verilib və rəsmi açılış mərasimləri Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilib. Bərdə-Ağdam, Horadiz-Ağbənd və Ağdam-Xankəndi dəmir yolu xətləri üzrə layihələndirmə və tikinti işləri aparılıb. Bərdə-Ağdam dəmir yolu xətti tam istifadəyə verilib. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün inşaası planlaşdırılıb, onlardan 42 körpünün tikintisi başa çatıb, 3 körpü istismara verilib. Avtomobil yolları infrastrukturunda isə 60 layihə üzrə 3501,6 kilometr yolun tikintisi nəzərdə tutulub, bunlardan 16 layihə tam, 1 layihə qismən başa çatıb. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Ərazidə 19 marşrut xətti təşkil edilərək, ziyarət xarakterli səfərlər üçün "yolumuzqarabağa.az" portalı üzərindən bilet əldə etmək imkanı yaradılıb.

*Mətbuatda elan olunmuş bu faktlar və rəqəmlər görülən işin bir hissəsidir.*

*Hər gün Qarabağda və Şərqi Zəngəzurda yeni obyektlərin təməli qoyulur, inşası başa çatanlar təhvil verilir, insanlar sevinc və fərəh içərisində geriyə qayıdaraq dövlətin yaratdığı şərait sayəsində sevinc və fərəh dolu günlərini davam etdirirlər.*

❖ ❖ ❖

Bu gün dünyada gedən müharibələr, müxtəlif dövlətlərə sanksiyaların tətbiqi ticarət edən ölkələri tərəfdaş, habelə yükdaşıma üçün marşrut seçimində yeni variantları nəzərdən keçirmək zərurəti ilə üzləşdirir.

*Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək Cənubi Qafqazda söz sahibinə çevrilməsi, yaranan yeni situasiya ilə bağlı Orta dəhlizin əhəmiyyətinin qat-qat artması da yeni reallıqlardandır.*

**BMT-nin Təhlükəsizlik Şurasının iclaslarına sədrliyi, Qoşulmama Hərəkatına rəhbərliyi dövründə Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü dəyərli təşəbbüslər, atdığı səmərəli addımlar onun beynəlxalq nüfuzunu yüksəltməklə yanaşı, ölkəyə xeyli sayda yeni dostlar da qazandırmışdır.**

Ölkəmizin "etibarlı tərəfdaş" imici də onunla əlaqə və əməkdaşlıq qurmaq istəyənlərin sayını daim artırır.

Bərabərhüquqlu, bir-birinə hörmət və daxili işlərinə qarışmamaq prinsipini rəhbər tutan Azərbaycan daim əməkdaşlığa hazırdır və bir çox ölkə, habelə beynəlxalq təşkilatla sıx əlaqələr qurub.

**Türk Dövlətləri Təşkilatı buna parlaq misaldır.**

**Bu təşkilatın yaranmasında və fəaliyyətinə yeni nəfəs verilməsində Azərbaycan Prezidenti İlham Əliyevin xidmətləri sonsuzdur.**

Artıq reallığa çevrilməkdə olan Zəngəzur dəhlizinin (TRIPP) Azərbaycanın qələbəsi və fəaliyyəti sayəsində yenidən türk dövlətlərinin quru əlaqələrinin bərpasını təmin etməsi bu təşkilat üçün yeni inkişaf perspektivləri yaradır.

Cənubi Qafqazda yerləşsə də, ölkəmizin fəal qarşılıqlı fəaliyyəti sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiona çevrilib.

*Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.*

"Mərkəzi Asiya+" formatına keçid, cari ildən isə Azərbaycanın da Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzv statusunda iştirakı yeni reallıqlardandır.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatının da fəal üzvlərindəndir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Avropa Siyasi Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı və Ərəb Dövlətləri Liqasının tədbirlərində daim fəxri qonaq qismində iştirak edir.

Ötən il Azərbaycan 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv seçilmiş və beləliklə, enerji, nəqliyyat və kommunikasiya sahələrində D-8 ölkələri ilə çoxşaxəli tərəfdaşlıqlar qurmaqla regional və beynəlxalq əməkdaşlığın mühüm iştirakçısına çevrilmişdir.

**Bütün bunlar Azərbaycanın doğru və uzaqgörən siyasət yürütməsindən, Azərbaycanın dövlət başçısının yüksək beynəlxalq nüfuzundan xəbər verir.**

❖ ❖ ❖

Cənubi Qafqaz dövlətləri arasında yalnız Azərbaycanın özünəməxsus siyasi kursu, inkişaf yolu vardır!

* Bu yol dövlətə və dövlətçiliyə xidmət edən yoldur!
* Bu yol xalqın mənafeyinə, bu gününə və sabahına xidmət edən yoldur!
* Bu yol inkişaf və tərəqqi yoludur, müstəqilliyə xidmət edən yoldur!
* Bu yol haqqa, ədalətə xidmət edən yoldur!
* Bu yol hazırkı və gələcək nəsillərə xidmət edən yoldur!

Yaxın qonşularımız isə hərəsi bir tərəfə baxdıqlarından hələ də öz yollarını müəyyənləşdirə, həqiqi inkişaf və tərəqqiyə nail ola bilməyiblər.

Hələ də problemlər içərisində çabalayırlar.

**Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycan real müstəqilliyinin ilk günlərindən düzgün siyasi kurs müəyyənləşdirdi, düz yolla getdi!**

*Xalq isə bu yolun parlaq gələcəyini gördüyündən müvəqqəti çətinliklərə dözərək Heydər Əliyev siyasi kursunu daim dəstəklədi!*

Bəli, bu yol asan və rahat olmadı...

Ən çətin sınaqlardan, hətta müharibə alovlarından keçən bir yol oldu.

Amma nəticədə xalqı ən ülvi istəklərinə, ən müqəddəs arzularına qovuşdurdu!

**Bu gün də Azərbaycan inamla irəliyə doğru addımlayır...**

**Daim etibar etdiyi, güvəndiyi Heydər Əliyev siyasi kursu ilə!**

**Onu daim ucaldan və xoşbəxt çağlara çatdıran İlham Əliyev yolu ilə!**

**Bəxtiyar SADIQOV**

# Leyla Əliyeva ÜST-nin Avropa üzrə Regional Ofisinin xüsusi nümayəndəsi ilə görüşüb





Dekabrın 18-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin İqlim və Sağlamlıq üzrə xüsusi nümayəndəsi Robb Butler ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Leyla Əliyevaya iqlim və sağlamlıq sahəsində göstərdiyi səmərəli xidmətlərə, COP29 çərçivəsində fəal iştirakı və maarifləndirmə fəaliyyətinə, eləcə də ÜST-nin Pan-Avropa Səhiyyə və İqlim Komissiyasının fəaliyyətinə verdiyi dəstəyə görə Ümumdünya Səhiyyə Təşkilatının xüsusi mükafatı təqdim olunub. Söhbət zamanı IDEA İctimai Birliyi tərəfindən iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib, bu sahədə ÜST ilə Azərbaycan arasında mümkün əməkdaşlıq imkanları müzakirə olunub. Tərəflər Xəzər dənizinin səviyyəsinin enməsinin ekoloji və insan sağlamlığına potensial təsirləri barədə fikir mübadiləsi aparıb, bu istiqamətdə birgə təşəbbüslər və beynəlxalq çağırışların gücləndirilməsi imkanlarını, o cümlədən Azərbaycanın ÜST-nin "Sağlam şəhərlər" şəbəkəsinə qoşulması perspektivlərini müzakirə ediblər.

Bununla yanaşı, təmiz havanın insan sağlamlığına təsiri, havanın çirklənməsinin azaldılması və bu sahədə maarifləndirmə tədbirlərinin gücləndirilməsi məsələləri müzakirə olunub.

# Leyla Əliyeva "ASAN Məktub" sosial proqramının 10 illiyinə həsr olunan tədbirdə iştirak edib









Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində "ASAN Məktub" sosial proqramının 10 illiyinə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

ASAN könüllüləri, sosial qayğıya ehtiyacı olan uşaqlar və digər qonaqların da iştirak etdiyi tədbir "ASAN xidmət" və "Bilim Bakı" mərkəzləri ilə tanışlıqla başlayıb. Qonaqlara 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin fəaliyyəti, həmçinin "ASAN xidmət" mərkəzləri və dövlət xidmətlərində tətbiq olunan innovativ həllər barədə məlumat verilib, hazırda Azərbaycanın intellektual məhsulunun 30-dan çox ölkəyə ixrac edildiyi bildirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "ASAN Məktub" ağacındakı məktublardan birini öhdəliyə götürüb.

Səyyar "ASAN xidmət" avtobusu ilə tanışlıq çərçivəsində diqqətə çatdırılıb ki, əsas məqsəd dövlət xidmətlərinin hər kəs üçün daha rahat, innovativ üsullarla və əlçatan şəkildə təqdim edilməsidir.

"Bilim Bakı" mərkəzinin fəaliyyəti də maraqla qarşılanıb. Qeyd olunub ki, mərkəzin fəaliyyəti 6-14 yaşlı şagirdlərin texnologiya, innovasiya, elm və sahibkarlıq sahəsində bilik və bacarıqlarının inkişafına yönəlib. Əsas məqsəd şagirdlər arasında həmin sahələrə marağı artırmaq, müasir tələblərə cavab verən bilik və bacarıqları aşılamaqdır.

Tədbirin rəsmi hissəsi "ASAN Məktub" sosial proqramının 10 illik fəaliyyətinə dair videoçarxın nümayişi ilə başlayıb. Məlumat üçün bildirilib ki, "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" sosial proqramı 3-14 yaşarası sosial qayğıya ehtiyacı olan uşaqların arzularını reallaşdırmaq, onlara sevinc, diqqət və qayğı bəxş etmək məqsədilə 2015-ci ildən həyata keçirilir. Proqram çərçivəsində bu günədək 56 region üzrə ümumilikdə 10 512 məktuba uyğun arzular gerçəkləşdirilib.

Qonaqlara "Bir qəlbi də sən isit" layihəsi haqqında da məlumat verilib. Layihə çərçivəsində vətəndaşların dəstəyilə dekabr ayı ərzində 3-14 yaşarası sosial qayğıya ehtiyacı olan uşaqların arzularının gerçəkləşdirildiyi vurğulanıb. İndiyədək ölkənin müxtəlif bölgələrində 2 500-dən çox uşağın arzusunun reallaşdırıldığı diqqətə çatdırılıb.

Sonra "ASAN Könüllüləri" Təşkilatının "Mədəniyyət Carçısı" proqramı çərçivəsində musiqi ifa edilib, rəqs nümunəsi nümayiş olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "ASAN Məktub", "Yaşıl ASAN" və "ABAD" stendlərinə də baş çəkib.

Tədbir dövlət agentliyinin həyətində təşkil edilən ağacəkmə aksiyası ilə davam edib.

Tədbir çərçivəsində, həmçinin 1, 2 və 3 saylı Uşaq evi sosial xidmət müəssisələrindən və Sosial Xidmət Mərkəzlərindən olan uşaqlara müxtəlif hədiyyələr təqdim edilib.

# Əmək münasibətləri müasir tələblərə uyğun təkmilləşdirilir




Dekabrın 18-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Musa Quliyev gündəliyə iki məsələnin daxil edildiyini bildirib.

Əvvəlcə Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində , "Həmkarlar İttifaqları haqqında", "Sosial siğorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən siğorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə layihə ikinci oxunuşda müzakirəyə çıxarılıb.

Bildirilib ki, layihə çərçivəsində Əmək Məcəlləsində nəzərdə tutulan dəyişikliklər üç əsas istiqaməti əhatə edir və onların məqsədi əmək münasibətlərinin müasir tələblərə uyğun təkmilləşdirilməsi, çevik və sosialyönümlü hüquqi mexanizmlərin tətbiqi, beynəlxalq əmək standartlarına uyğunluğun təmin edilməsi, eləcə də normativ-hüquqi aktların qanunvericiliyin tələblərinə uyğunlaşdırılmasıdır. Qanun layihəsinin ailə həyatı ilə peşə fəaliyyətinin uzlaşdırılmasına müsbət töhfə verəcəyi qeyd olunub.

Daha sonra gündəliyin növbəti məsələsinə - Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə ikinci oxunuşda baxılıb.

Qeyd edilib ki, qanun layihəsi dövlət qulluğu, vergi və sosial sığorta sahələrində hüquqi və sosial təminat mexanizmlərinin daha da təkmilləşdirilməsini hədəfləyir. Layihə dövlət qulluqçularının pensiya, müavinət və digər sosial hüquqlarının dəqiqləşdirilməsini, əvvəllər tənzimlənməyən münasibətlər üzrə hüquqi əsasların yaradılmasını, habelə gəlir vergisi və sosial sığorta ilə bağlı normaların aydınlaşdırılmasını nəzərdə tutur. Eyni zamanda dəyişikliklər normativ-hüquqi aktlar arasında uyğunluğun təmin edilməsinə xidmət edir.

Onlayn iclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev, nazirliyin Aparatının Əmək siyasəti şöbəsinin müdiri Fuad Heydərov çıxış edərək qanun layihəsi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətiriblər.

Sonda hər iki qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# İlin ən fəal sahibkarları mükafatlandırılıb



Ötən gün İqtisadiyyat Nazirliyinin dəstəyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə "Dayaq" mükafatının təqdim olunması mərasimi keçirilib.

KOBİA tərəfindən 2022-ci ildə təsis edilmiş mükafatın məqsədi iqtisadiyyatın dayağı olan sahibkarların uğurlarının cəmiyyətə daha geniş tanıdılması, biznes düşüncə tərzinin təşviqi və dövlət-özəl sektor arasında əməkdaşlığın möhkəmləndirilməsidir. "Dayaq" mükafatı yalnız sahibkarlara təşəkkür deyil, həm də biznesin yeni təşəbbüslərə və daha böyük hədəflərə doğru addımlaması üçün çağırış və dövlətin daim sahibkarın yanında olmasının göstəricisidir.

300-dən çox iş adamı, startap, biznes assosiasiyalarının nümayəndələri, millət vəkilləri və dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi tədbir Azərbaycanın Dövlət Himninin səslənməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev sahibkarlığın inkişafının yeni iş yerlərinin yaradılmasına və əhalinin rifah halının yüksəldilməsinə mühüm töhfə verdiyini qeyd edib. O, 2018-ci ildən həyata keçirilən 5 sosial islahat paketi nəticəsində sosial ödənişlərdəki artımları, əmək müqavilələrinin sayının 45 faiz və ya 595 min artdığını, bunun 92 faizinin özəl sektorun payına düşdüyünü diqqətə çatdırıb. 2018-2025-ci illərdə əməkhaqqı fondunda 3,2 dəfə, o cümlədən qeyri-dövlət sektoru üzrə 3,6 dəfə artım olduğunu deyən nazir qeyd edilən dövrdə Nazirlik tərəfindən 2,1 milyondan çox şəxsin aktiv məşğulluq tədbirləri ilə əhatə olunduğunu bildirib. Tədbirdə qeyd edilib ki, ölkəmizdə dayanıqlı mexanizmlərə əsaslanan sosial tərəfdaşlıq sistemi formalaşıb, bu sistem vasitəsilə işçilərin hüquqlarının qorunması ilə yanaşı, həm də sahibkarların maraqları təmin edilib. Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında Baş Kollektiv Saziş imzalanıb, Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiya uğurlu fəaliyyət göstərib. Sahibkarlığa dəstək tədbirləri həm vətəndaş rifahının yüksəldilməsinə, həm də iqtisadi inkişafa xidmət edib.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev 2025-ci ilin iqtisadi mənzərəsi və özəl sektorun inkişaf göstəriciləri barədə məlumat verib. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində ölkəmizdə iqtisadi mühit təkmilləşib, sahibkarların rəqabət qabiliyyəti artıb, ölkənin beynəlxalq nüfuzu güclənib və xarici investisiyaların cəlbi üçün əlverişli şərait yaranıb. İqtisadi siyasətin əsas istiqamətlərindən olan qeyri-neft-qaz sektorunun inkişafı nəticəsində bu sahə 2021-2024-cü illərdə hər il orta hesabla 6,7 faiz artıb və onun iqtisadiyyatda payı 68 faizə yüksəlib, hazırda bu rəqəm 70 faizdən çoxdur. Qeyri-neft ixracı son altı ildə demək olar ki, iki dəfə artıb. Qabaqcıl ideyaların tətbiqi, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və həyata keçirilən islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 81,4 faiz səviyyəsindədir. Son illərdə dövlətin əsas prioritetlərindən biri işğaldan azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərin öz doğma yurdlarına mümkün qədər qısa müddətdə qayıtmasıdır. Dövlət və özəl sektor əməkdaşlığı bu sahədə də özünü müsbət mənada göstərir və bizneslər Böyük qayıdış prosesində fəal iştirak edirlər.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov çıxışlarında KOB-ların dayanıqlı və davamlı iqtisadi inkişafda artan rolu, dövlət-özəl əməkdaşlığı barədə fikirlərini bölüşüblər.

Sonra 2025-ci ildə uğur qazanmış 17 sahibkarlıq subyektinə "Dayaq" mükafatları təqdim edilib. Sahibkarlar "Azad olunmuş ərazilərdə uğurlu biznes", "Əlillik məhdudiyyət deyil", "İlin investoru", "Uğurlu qadın sahibkar", "Ölkədə turizmin inkişafı", "İnnovativ həllər", "Ekoloji məsuliyyət", "Uğurlu istehsalçı", "Fəal ixracatçı şirkət", "Halal biznes", "Yeni nəfəs, yeni görüntü", "Uğurlu startap", "Milli biznesin beynəlxalq təsir gücü", "Tekstil - peşəkar fəaliyyət", "Rabitə xidmətlərinin inkişafı", "Kənd təsərrüfatında uğur" və "Naxçıvanda uğurlu biznes" nominasiyaları üzrə mükafatlandırılıblar.

Tədbir çərçivəsində "2026: KOB-ların çağırışı" mövzusunda panel müzakirə təşkil olunub, KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsi məqsədilə KOBİA tərəfindən elan edilmiş 7-ci qrant müsabiqəsinin qalibləri təqdim edilib.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Azərbaycanın sədrliyi ilə AQEM-in Xüsusi İşçi Qrupu və Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclasları olub



Dekabrın 15 və 17-də Azərbaycanın sədrliyi ilə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Xüsusi İşçi Qrupu və Yüksək Vəzifəli Şəxslər Komitəsinin onlayn iclasları keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, iclaslarda AQEM-ə üzv dövlətlər müşavirə və onun məşvərətçi orqanları çərçivəsində əməkdaşlıq və qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini, etimad quruculuğu tədbirlərinə dair plan və müvafiq konsepsiyaları, eləcə də 2026-cı il üçün nəzərdə tutulan əlaqədar tədbirləri müzakirə ediblər. Üzv dövlətlər həmçinin AQEM-in institusional inkişafı, o cümlədən 6-cı AQEM Sammitinin qərarına uyğun olaraq, müşavirənin beynəlxalq təşkilata çevrilməsi istiqamətində davam edən transformasiya prosesi barədə fikir mübadiləsi apararaq, bu istiqamətdə sədrliyin fəaliyyətinə dəstəklərini ifadə ediblər.

Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası zamanı baş katib Azərbaycanın sədrliyi dövründə cari il ərzində AQEM-in fəaliyyəti barədə illik hesabatı üzv dövlətlərə təqdim edib. Komitədə AQEM-in Etimad Quruculuğu Tədbirlərinin İcra Planına və 2026-cı il üçün AQEM Katibliyinin büdcəsinə dair qərarlar, eləcə də digər prosedur qərarlar nəzərdən keçirilərək qəbul olunub.




# Konstitusiya və Suverenlik İli 2025






# Heydər Əliyev və Azərbaycanın Əsas Qanunu

**Sovet İttifaqının dağılması XX əsrin sonlarında öz müstəqilliyi uğrunda mübarizəyə qalxan Azərbaycan xalqı üçün tarixi fürsət oldu. Ümummilli Lider Heydər Əliyevin səyləri və gərgin əməyi sayəsində yaradılan qüdrətli infrastrukturun mövcudluğu və gələcək siyasi, iqtisadi və mədəni müstəqillik üçün formalaşan, eləcə də xalqda müstəqil dövlətçilik meylinin oyanması milli azadlığı şərtləndirən mühüm amillər oldu.**

Azərbaycan keçmiş SSRİ-nin tərkibində müstəqil dövlət kimi mövcud ola bilən azsaylı respublikalardan biri idi. Müstəqillik qazanmağın, demokratik Azərbaycan dövlətinin qurulmasının və möhkəmlənməsinin üçüncü mühüm şərti tarixi şəxsiyyətin - Ümummilli Lider Heydər Əliyevin mövcudluğu idi. Vaxtilə görkəmli amerikalı politoloq Z.Bjezinski demişdi: "İndi Azərbaycana rəhbərlik edə biləcək yalnız bir şəxs var - Heydər Əliyev!" Bu, bütün dünya tərəfindən qəbul edilən bir həqiqət idi. Heydər Əliyevin üç onillikdən artıq siyasi və dövlət rəhbərliyinin real nəticəsi öz siması, öz mövqeyi, öz səsi, dünya birliyində özünün layiqli yeri olan müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmlənməsidir.

Sovet dövründə Heydər Əliyev Azərbaycanı hər cəhətdən ön plana çıxara bildi. Ulu Öndərin uzaqgörən rəhbərliyi sayəsində sosial, iqtisadi və mədəni həyatda ən mühüm transformasiyalar uğurla həyata keçirilmiş, bu da sonralar müstəqil Azərbaycanın inkişafının sosial-iqtisadi və mədəni bazası, bünövrəsi olmuşdur. İstər sovet dövründə, istərsə də müstəqillik illərində Vətənə, xalqa sədaqətlə, ləyaqətlə xidmət etmək onun döyüş şüarı və həyat idealı olmuşdur.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirildi. Plenumda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi, başqa sözlə, respublikanın rəhbəri seçildi. Ulu Öndərdən öncə respublikaya rəhbərlik etmiş Vəli Axundov Heydər Əliyev haqqında demişdir: "Heydər Əliyevə xas olan siyasi və işgüzar keyfiyyətlər onun respublikaya ləyaqətlə rəhbərlik edəcəyinə, böyük və mürəkkəb işlərin öhdəsindən məharətlə gələcəyini deməyə imkan verir. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı, yüksək intellektə malik bir insandır. O, kadrların hamısına münasibətdə doğru mövqe tutur, çünki kifayət qədər obyektiv, dürüst və ləyaqətli insandır". V.Axundovun bu fikirləri 10 il müstəqil Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin titanik siyasi-dövlət fəaliyyətinin nəticələri ilə dəfələrlə öz təsdiqini tapmışdır. Parlaq, mənalı ömür yolu keçən Heydər Əliyev yüksək insani-mənəvi keyfiyyətlərə malik böyük tarixi şəxsiyyət xüsusiyyətlərini özündə təcəssüm etdirən mahir siyasi lider olmuşdur. Hələ 1969-1982-ci illərdə Azərbaycanın gələcək inkişafı üçün güclü kadr potensialının formalaşmasına böyük təsir göstərən elm və təhsil sahəsində səmərəli fəaliyyətin nəticəsi idi ki, müstəqillik əldə etdikdən sonra ölkəmizdə yüksəkixtisaslı mütəxəssislər qıtlığı yaşanmamışdır.

Etiraf etmək lazımdır ki, 1970-1985-ci illər Azərbaycan quruculuğu tarixində ən məhsuldar və ən parlaq illərdən olmuşdur. Məhz bu dövrdə mütərəqqi ənənələrə əsaslanan, yaxın və uzunmüddətli perspektivə yönələn, müstəqilliyə yol açan inkişaf strategiyası müəyyən edilərək uğurla həyata keçirilmişdir. Ulu Öndərin əsas tarixi xidməti Azərbaycanın keçmiş ittifaqın tərkibində olduğu illərdə də respublikamızın müstəqil yaşayıb inkişaf etməsi üçün ardıcıl şəkildə gördüyü fəaliyyətindən ibarət idi. 1969-1982-ci illərdə Azərbaycan SSR-in əldə etdiyi nailiyyətlər suveren Azərbaycan Respublikasının möhkəm təməli olmuşdur.

Müstəqil Azərbaycan diasporunun təşkilatlanması prosesində, Şərq siyasətində, Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin inkişafında, Vyetnam-Azərbaycan, Azərbaycan- Çin, Azərbaycan-Səudiyyə Ərəbistanı, Azərbaycan-İslam Əməkdaşlıq Təşkilatı, Azərbaycan-Qazaxıstan, Cənubi Koreya-Azərbaycan əlaqələrinin qurulmasında, inkişafı və elmi-mədəni əlaqələrinin möhkəmlənməsində Heydər Əliyevin müstəsna rolunu qeyd etməmək mümkün deyil.

Ulu Öndər gənclərə çox önəm verir, onlara xüsusi qayğı göstərirdi. Heydər Əliyev üçün Azərbaycanın gələcəyi sağlam düşüncəli, sağlam vücudlu, sağlam fikirli gənclərlə qurulacaq.

Müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəd, həmçinin suverenliyimizin təminatçısı olan Konstitusiya da məhz Ulu Öndərin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə təsadüf olunur. Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunmuşdur. 1927-ci il martın 26-da V Ümum-Azərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR-in növbəti Konstitusiyası təsdiq edilmiş, 1936-cı ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar 1937-ci il martın 14-də IX Ümum-Azərbaycan Sovetlər Qurultayının qərarı ilə Azərbaycan SSR-in yeni Konstitusiyası qüvvəyə minmişdir.

Azərbaycan SSR-in sayca dördüncü Konstitusiyası isə 1978-ci ildə 1977-ci il SSRİ Konstitusiyası əsasında qəbul edilmişdir. Bu Konstitusiyanın hazırlanması və qəbulu o zaman Azərbaycana rəhbərlik edən Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdir. Əvvəlki konstitusiyalardan fərqli olaraq, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası öz müsbət və həmin dövr üçün cəsarətli, mütərəqqi müddəaları ilə seçilirdi. Bu Konstitusiyanın "Dövlət və şəxsiyyət" adlanan ikinci bölməsi vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsi, onların yeni məzmunla və əlavə maddi, hüquqi təminatlarla zənginləşdirilməsi ilə səciyyələnirdi.

İlk dəfə olaraq Azərbaycanın Konstitusiya tarixində "xalq hakimiyyəti" və "demokratiya" terminləri məhz 1978-ci il Konstitusiyasında təsbit olunmuşdur. İlk dəfə təsbit edilən həm də məhz bu Konstitusiyada xalq hakimiyyətinin bilavasitə demokratiya institutu sayılan referendum - ümumxalq səsverməsi kimi göstərilməsidir. Həmin Konstitusiyanın müsbət tərəflərindən biri də o idi ki, o, referendumu ictimai rəy sorğusundan və qanun, qərar layihələrinin müzakirəsindən fərqləndirirdi, həmçinin referendumla yanaşı, xalq hakimiyyətinin bilavasitə demokratiya forması sayılan qanun və qərar layihələrinin ümumxalq müzakirəsini ehtiva edirdi. Məhz bu Konstitusiyada xalq hakimiyyətinin təmin olunmasında mühüm rol oynayan vətəndaşların petisiya hüququ, vətəndaşların siyasi partiyalarda birləşmək hüququ kimi yeni siyasi hüquqlar bəyan olunurdu.

1978-ci ildə qəbul edilən yeni Konstitusiyada dil məsələsi də əsas prinsiplərdən idi. Həmin dövrlərdə Azərbaycan SSR-in rəhbəri olan Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarət və qətiyyətlə bildirmişdir. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddə aşağıdakı redaksiyada təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Bu, Azərbaycan dilinin tarixində, bütövlükdə xalqımızın yaddaşında dərin iz qoyan tarixi təşəbbüs idi. Heydər Əliyevin bu təşəbbüsü 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapdı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri idi və Ümummilli Lider bununla gələcək müstəqil dövlətçiliyin milli rəmzlərindən birini məharətlə qorumuş oldu.

Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası da ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı.

Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilib. Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapıb. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış 1996-cı il 1 noyabr tarixli fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Təsadüfi deyil ki, Konstitusiyamızın müəllifi Ulu Öndər Heydər Əliyev Əsas Qanunun ən mükəmməl formada hazırlanmasını zəruri sayaraq bildirmişdir: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".

Heydər Əliyev deyirdi: "Hər bir şəxs Konstitusiyaya və qanunlara əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir". Bu da Ulu Öndərin sözləridir: "Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!"

Bir əsrdən artıq dövrü əhatə edən zaman kəsiyində qəbul olunmuş konstitusiyaların hər biri Azərbaycan xalqının, respublikamızın bütün həyatında müəyyən tarixi mərhələdə öz inkişaf və tərəqqi missiyasını başa vurub. Onların hər biri qazanılmış uğurları əks etdirməklə yanaşı, bu hadisələri təsbit edərək cəmiyyətimizin quruculuğunda yeni mərhələyə keçildiyini göstərib, sosial-iqtisadi, siyasi və mədəni tərəqqinin zirvələrinin ardıcıl yüksəlişində pillə rolunu oynayıb.

*Bu qüdrətli dövlətin quruculuğunda Ulu Öndərin işini hazırda onun layiqli davamçısı İlham Əliyev davam etdirir. İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycan öz xalqının humanizm ideyalarını, milli maraqlarını əsas tutaraq müstəqil şəkildə daxili və xarici siyasətini cəsarətlə həyata keçirir, suveren hüquqlarına uyğun olaraq bütün dünya ölkələri ilə münasibətlərini hüquqi müstəvidə quraraq qarşısına qoyduğu məqsədlərə doğru uğurla addımlayır, regionda lider dövlət kimi öz sözünü deyir.*

***Zərifə NAĞIYEVA,***
*Dövlət Statistika Komitəsinin Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin Elmi araşdırmalar və statistik tədqiqatlar şöbəsinin rəisi*

***Çiçək HÜSEYNZADƏ,***
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin Statistik innovasiyaların tətbiqi şöbəsinin rəisi*

# 20 min məhkumun azadlığını özündə ehtiva edən tarixi amnistiya təşəbbüsü

## Bu, dövlət başçısının insan həyatına verdiyi yüksək dəyərdir

Azərbaycan Prezidenti növbəti amnistiyanın elan edilməsi təşəbbüsü ilə çıxış edib. Bir neçə gündür Azərbaycanı şəhərbəşəhər, kəndbəkənd, evbəev dolanan bu şad xəbər on minlərlə ailəyə amnistiya tətbiq ediləcək məhkumların yaxınlarına, dost və tanışlarına sevinc bəxş edib.

Dövlət başçısının bu il mayın 25-də imzaladığı "Məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, qəbul edilmiş "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam ölkə ictimaiyyəti tərəfindən məmnunluqla qarşılanıb.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bağışlamaq, əfv etmək, hansısa səhvi və ya günahı üzündən əzizlərindən ayrı düşmüş insanların ailəsinə qovuşmasını təmin etmək xalqımızın milli ruhundan gələn rellıqdır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ötən 34 il ərzində ölkədə 12 dəfə amnistiya aktı qəbul edilib. Qürurverici haldır ki, ölkəmizdə indiyədək 70-ə yaxın əfv sərəncamı həyata keçirilib ki, bunların da əksəriyyəti məhz Prezident İlham Əliyevin hakimiyyəti dövrünə təsadüf edir.

"Konstitusiya və Suverenlik İli"nin uğurlarla başa çatacağı ərəfədə reallaşacaq bu amnistiya aktının 20 mindən çox məhkuma şamil olunacağı gözlənilir. Bu aktın icrası zamanı 5 min nəfərdən çox insan azadlıqdan məhrumetmə cəzasından qurtulacaq, habelə azadlıqdan məhrum edilmiş daha 3 min nəfərin cəzası azaldılacaq. Üstəlik, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, eləcə də mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi bildirilir. Bundan başqa, dövlət başçısının növbəti humanist təşəbbüsü ilə "böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq.

Ulu Öndər xatırladırdı ki, hər bir insanın özünəməxsus, çoxsaylı arzuları ola bilər. Həbsxanada olanların isə ən ümdə arzusu məhz azadlığa çıxmaq, əzizlərinə qovuşmaqdır. Prezident İlham Əliyev də bu məsələdə böyük həssaslıq nümayiş etdirir. Dövlət başçımız dönə-dönə xatırladıb ki, bizim siyasətimizin təməlində insan amili dayanır.

"Konstitusiya və Suverenlik İli" münasibətilə Prezident İlham Əliyevin amnistiya elan edilməsi təşəbbüsü ilə çıxış etməsinin təməlində ilk növbədə insan amilinə yüksək dəyər verməsi dayanır. Məhz bu dəyərin nəticəsidir ki, xalqımız bu il on minlərlə məhkuma şamil ediləcək humanizmin sevincini yaşayır.

Hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti xüsusi qeyd edilməlidir. Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə amnistiya aktları qəbul edilib. Bu təşəbbüslər xeyirxahlıq və mərhəmət ideallarının təcəssümünə çevrilib.

Ali Baş Komandanın təşəbbüsü ilə 2021-ci il noyabrın 5-də Milli Məclis tərəfindən "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərar qəbul edilmişdi ki, bu da dövlətin öz siyasətində insan ləyaqətinə hörmətin bariz nümunəsi kimi qəbul edilir. Bu amnistiya aktı 17 min 267 şəxsə şamil olunub. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayanlardır. Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 5971 məhkuma tətbiq edilib. Onlardan 2710 məhkum azadlıqdan məhrumetmə cəzasından azad olunub, 3261 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb. Həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 8559 şəxsə amnistiya tətbiq edilib.

Prezident İlham Əliyevin, eləcə də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətli təşəbbüsləri ildən-ilə artır. Həmin təşəbbüslərin - əfv sərəncamı və amnistiya aktlarının icrası zamanı on minlərlə soydaşımız, eləcə də ölkəmizdə həbs edilmiş əcnəbi şəxslər də öz azadlıqlarına qovuşublar.

Tanınmış hüquqşünas, Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev mətbuata açıqlamasında Prezident İlham Əliyevin amnistiya aktının qəbul edilməsi ilə bağlı təşəbbüslə çıxış etməsini alqışladığını bildirərək demişdir: "Bu, olduqca humanist bir addımdır. Ümumiyyətlə, Prezidentin apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır və humanizm, mərhəmət prinsipləri onun əsas istiqamətlərindən biridir".

Özlüyündə ölkə həyatının siyasi, iqtisadi, mədəni, habelə humanizm sahəsindəki uğurları ehtiva edən bu amnistiya aktı ehtimal olunur ki, "Konstitusiya və Suverenlik İli"nin sonlarında - Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı ərəfəsində reallaşacaq və xalqımıza ikiqat bayram sevinci bəxş edəcək.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# Azərbaycanın xarici siyasətinin uğurları

**Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfəri çərçivəsində bir sıra tədbirlərdə iştirak edib. Dövlətimizin başçısının BƏƏ-nin Prezidenti ilə görüşündə iki ölkə arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.**



## Azərbaycan-BƏƏ enerji əməkdaşlığına "yaşıl işıq"

### Birləşmiş Ərəb Əmirlikləri ölkəmizin bərpaolunan enerji layihələrində yaxından iştirak edir

Ümumiyyətlə, Azərbaycan və BƏƏ dövlət başçılarının qarşılıqlı səfərləri iqtisadi əlaqələrin də getdikcə inkişafına böyük təkan verir. Prezidentimizin budəfəki səfəri bir daha göstərdi ki, hərtərəfli əlaqələr davamlı xarakter daşıyır. Bu da özünü iqtisadi sahələrdə, xüsusilə enerji sektorunda daha aydın büruzə verir.

Elə başa vurmaqda olduğumuz il ərzində bu sahədə baş verən yenilikləri xatırlayaq. Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri çərçivəsində hər iki ölkənin dövlət başçılarının iştirakı ilə sənədlərin mübadiləsi mərasimi oldu. Bunların sırasında "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının "yaşıl enerji" zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında "Cənub qaz dəhlizi"ndə investisiya haqqında Anlaşma Memorandumu" da vardı.

Həmin gün Şuşada Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşündə dövlətimizin başçısı demişdir: "Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci günəş-elektrik stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə giqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır".

Enerji sektorunda əməkdaşlıqdan söhbət gedəndə ilk növbədə ölkələrimizin birgə reallaşdırdığı "yaşıl enerji" layihələri yada düşür. Belə ki, BƏƏ-nin "Masdar" şirkətinin Azərbaycanda həyata keçirilən bərpaolunan enerji layihələrində önəmli rolu var. Təkcə o faktı qeyd etmək kifayətdir ki, "Masdar" Bakıda Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyasını tikib. 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası 2023-cü il oktyabrın 26-da işə salınıb.

BƏƏ-nin aparıcı enerji şirkətlərindən olan "Masdar"la əməkdaşlıq və tərəfdaşlığımız getdikcə daha çox layihələri əhatə edir. Yeri gəlmişkən: 2006-cı ildə BƏƏ-də yaradılan "Masdar" həmin vaxtdan bəri zəngin təcrübə toplayıb, dünyada günəş və külək enerjisinin inkişafına on milyardlarla dollardan çox sərmayə yönəldərək onlarca layihənin iştirakçısı olub. Təsadüfi deyil ki, COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev "Masdar" şirkətinin adını çəkmişdir.

Xatırladaq ki, keçən il Bakıda Azərbaycanın energetika naziri Pərviz Şahbazov və BƏƏ-nin sənaye və yüksək texnologiyalar naziri, "Masdar" şirkətinin idarə heyətinin sədri Sultan Əhməd Əl-Cabirin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında da görüş keçirilmişdi. Görüşdə "Masdar" şirkəti ilə quruda və dənizdə "yaşıl enerji" layihələrinin icrası, hər iki ölkənin apstrim sektorunda dövlət şirkətlərinin iştirakı, 1000 MVt gücündə günəş və külək enerjisi stansiyalarının inşası ölkələrimizin "yaşıl enerji" keçidinə birgə töhfəsi kimi dəyərləndirilmişdi.

Eləcə də həmin gün Energetika Nazirliyi və "Azərenerji" ASC ilə "Masdar" şirkəti arasında 445 MVt gücündə Biləsuvar, 315 MVt gücündə Neftçala günəş-elektrik stansiyaları və 240 MVt gücündə Abşeron-Qaradağ Külək-Elektrik Stansiyası layihələri üzrə "İnvestisiya müqaviləsinə Əlavə", "Enerji alqı-satqı müqaviləsi", "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" və "Torpaq icarə müqaviləsi" imzalandı.

Sözügedən enerji obyektlərinin təməli isə bundan əvvəl qoyulmuşdu. Belə ki, təməlqoyma 2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" - "Caspian Power" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir tərəfindən tədbir çərçivəsində qoyulmuşdu. Sultan Əhməd Əl-Cabir tədbirdəki çıxışında demişdir: "Məqsədimiz 2030-cu ilədək bərpaolunan enerji potensialını üç dəfə artırmaqdır. Böyük məmnuniyyətlə deyərdim ki, zati-aliləri, cənab Prezident də qeyd etdiyi kimi, Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan hazırda üç yeni bərpaolunan enerji layihəsinin təməlqoyma mərasimini qeyd edəcəkdir. Biləsuvar və Neftçala günəş-elektrik stansiyaları, Abşeron-Qaradağ külək layihəsi ilə birlikdə Azərbaycanın artmaqda olan enerji ehtiyaclarını təmin etmək məqsədilə 1 qiqavat təmiz enerji hasil edəcək. Bütün bunlar faktiki olaraq, Birləşmiş Ərəb Əmirliklərinin tərəfdaşlıq tarixinə yazılmaqdadır. Belə ki, burada məqsəd bu ölkənin "yaşıl inkişaf"ını, artımını gücləndirmək və Dayanıqlı İnkişaf Məqsədlərini qlobal şəkildə təşviq etməkdir. Qeyd etmək istəyirik ki, bu cür praktiki tərəfdaşlıqlar bizim bu sahə üzrə öhdəliyimizi bir daha nümayiş etdirir, eyni zamanda bizim səmimi niyyətlərimizi və bu sahəyə olan həqiqi marağımızı bir daha ifadə edir. Məqsədimiz burada yaşıl artım gündəliyini inkişaf etdirməkdir".

İndi bu layihələr həyata keçirilməkdədir, daha doğrusu, icra mərhələsindədirlər.

Onu da deyək ki, iki il əvvəl - 2023-cü ilin dekabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) arasında strateji əməkdaşlıq sazişi də imzalanıb. Bu sənədin imzalanması Dubayda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP28) çərçivəsində olmuşdu. Saziş ətraf mühitin mühafizəsi sahəsində SOCAR və ADNOC arasında birgə fəaliyyətin daha da genişləndirilməsini, o cümlədən mavi hidrogen, geotermal enerji və karbon emissiyalarının idarə edilməsi sahəsində əməkdaşlıq məsələlərini nəzərdə tutur.

Göründüyü kimi, Azərbaycan-BƏƏ enerji əməkdaşlığı dərinləşir və getdikcə enerji sektorunun daha çox sahələrini əhatə edir. İndiyədək bu istiqamətdə atılan addımların uğurlu olması qarşıdakı layihələrin də beləcə müvəffəqiyyətlə həyata keçiriləcəyinə möhkəm zəmin yaradır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ölkələrimiz arasında intensiv qarşılıqlı səfərlər və aktiv diplomatik təmaslar əməkdaşlıq imkanlarının genişlənməsinə xidmət edir

"Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfərinin əsas məqsədi "Gələcəyin Oyunları 2025" qlobal idman turnirinin açılış mərasimində iştirak olsa da, bu səfər siyasi, iqtisadi və strateji aspektlər baxımından xüsusi əhəmiyyət kəsb edir. Səfər Azərbaycan-BƏƏ münasibətlərinin strateji tərəfdaşlıq çərçivəsində yeni, daha yüksək mərhələyə yüksəlməsinə xidmət edir. İki ölkə arasında siyasi dialoq yüksək intensivliklə davam edir, eyni zamanda iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi hər iki tərəfin prioritetləri sırasında yer alır. Azərbaycan xarici siyasətdə atdığı addımları hərtərəfli ölçüb-biçir və bu addımların regionda sülhə, təhlükəsizliyə və sabitliyə töhfə verməsi üçün ardıcıl və məqsədyönlü siyasət yürüdür. Bu baxımdan Azərbaycan-BƏƏ münasibətlərinin mövcud dinamikası regionda sabitliyin qorunub saxlanılmasına mühüm töhfə verir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov söyləyib.

O bildirib ki, strateji tərəfdaşlıq münasibətlərinin yüksələn xətlə inkişafı hər iki ölkə tərəfindən yüksək qiymətləndirilir. BƏƏ son onilliklərdə xarici siyasət, iqtisadi inkişaf və investisiya siyasəti sahəsində qeyri-adi uğurlara imza atmış ölkə kimi tanınır. Xarici siyasətdə ardıcıllıq, daxili siyasətdə isə sosial-iqtisadi rifahın təmin olunmasına yönəlmiş qərarlar beynəlxalq aləmdə ölkəyə olan müsbət münasibəti daha da gücləndirib. Müdafiə xərcləri ilə yanaşı, iqtisadi və sosial inkişaf üçün rəqabətqabiliyyətli layihələrə üstünlük verilməsi, münaqişələrin həllində qarşıdurma əvəzinə dialoq və barışıq modelinin seçilməsi BƏƏ-nin beynəlxalq imicinin əsas sütunlarındandır. Bu gün BƏƏ müharibə və münaqişələrin həllinə vasitəçilik edən, öz ərazisini sülh platforması kimi təqdim edən mühüm aktorlardan biri kimi çıxış edir.

"Azərbaycanla BƏƏ sülh və əməkdaşlıq məsələlərində ortaq baxışlara malikdir. Bu uyğunluq ikitərəfli münasibətlərin dərinləşməsinə əlverişli zəmin yaradır. Prezident İlham Əliyev ilə Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında formalaşmış yüksəksəviyyəli şəxsi münasibətlər qarşılıqlı etimad mühitini daha da möhkəmləndirir. İntensiv qarşılıqlı səfərlər və aktiv diplomatik təmaslar əməkdaşlıq imkanlarının genişlənməsinə xidmət edir.

Bu münasibətlərin institusional əsaslara söykənməsi məqsədilə 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalandı, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" qüvvəyə minib. Sözügedən sənədlər siyasi, iqtisadi, enerji, investisiya və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur", - deyə A.Badamov vurğulayıb.

BƏƏ-nin dünyanın aparıcı karbohidrogen istehsalçılarından biri olduğunu diqqətə çatdıran deputat deyib: "Ölkənin sübut edilmiş neft ehtiyatları 98,8 milyard barel, təbii qaz ehtiyatları isə təxminən 6 trilyon kubmetr təşkil edir. Gündəlik iki milyon bareldən artıq neft hasilatı BƏƏ-ni OPEC-in əsas üzvlərindən birinə çevirir. Bununla yanaşı, Hörmüz boğazına strateji nəzarət və əlverişli coğrafi mövqe ölkəyə qlobal enerji və ticarət təhlükəsizliyində mühüm rol qazandırır. Dubayın regional ticarət və logistika mərkəzinə çevrilməsi BƏƏ-nin beynəlxalq təsir imkanlarını daha da artırıb.

Azərbaycan da öz növbəsində "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, Qlobal Şimalla Qlobal Cənub arasında etibarlı tərəfdaş kimi çıxış edən dövlətdir. Enerji resursları və nəqliyyat-logistika potensialı ölkənin xarici siyasətində mühüm rol oynayır.

2025-ci il iyulun 9-da imzalanmış "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" Azərbaycan-BƏƏ iqtisadi münasibətlərində keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. Bu səfər həmin sazişin praktiki icrası baxımından mühüm əhəmiyyət daşıyır. Ticarət dövriyyəsinin artması, investisiya diversifikasiyası, innovasiya və "yaşıl texnologiyalar" üzrə əməkdaşlığın genişlənməsi əsas gözləntilər sırasındadır.

BƏƏ Azərbaycan iqtisadiyyatına indiyədək 2,5 milyard dollar həcmində investisiya yatırıb, ölkəmizdə 360-dan çox BƏƏ şirkəti fəaliyyət göstərir. Cari ilin 10 ayında ticarət dövriyyəsi 87 faiz artaraq 166,5 milyon dolları ötüb. Nizamnamə kapitalı 1 milyard dollar olan Birgə İnvestisiya Fondu, həmçinin bərpaolunan enerji layihələri - Qaradağ, Biləsuvar, Neftçala günəş-elektrik stansiyaları və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyası əməkdaşlığın real nəticələridir. "Masdar" şirkəti işğaldan azad edilmiş ərazilərdə də aktiv fəaliyyət göstərir, BƏƏ bu ərazilərin minalardan təmizlənməsi üçün 5 milyon dollar maliyyə dəstəyi ayırıb".

O bildirib ki, birbaşa aviareyslər turizm əlaqələrinin inkişafına müsbət təsir göstərib. Belə ki, ilin 10 ayında BƏƏ-dən Azərbaycana 39 mindən çox turist səfər edib. Yüksək texnologiyalar sahəsində əməkdaşlığın genişləndirilməsi də gündəmdədir.

Parlamentlərarası əlaqələr də dinamik inkişaf edir. BƏƏ Federal Milli Şurasının sədri Saqr Qobaşın Azərbaycana rəsmi səfəri, Milli Məclisin Sədri Sahibə Qafarova ilə keçirilən görüşlər və imzalanmış Anlaşma Memorandumu siyasi dialoqun institusional səviyyədə möhkəmləndiyini göstərir. Qarşılıqlı parlament səfərləri və yüksəksəviyyəli görüşlər iki ölkə arasında strateji tərəfdaşlığın davamlı siyasi iradəyə söykəndiyini təsdiqləyir.

## Prezident İlham Əliyevin Əbu-Dabiyə səfəri ikitərəfli əlaqələrimizi daha da gücləndirəcək

"Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan dünya ölkələri ilə fəal əməkdaşlıq münasibətləri qurub. Bu baxımdan ərəb ölkələri ilə əlaqələrin inkişafı xüsusi vurğulanmalıdır. Dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri də ikitərəfli əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, dövlətimiz Birləşmiş Ərəb Əmirlikləri ilə sürətlə inkişaf edən strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir. Son illərdə ikitərəfli əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlib, dövlət başçıları arasında mövcud münasibətlər bütün sahələrdə əməkdaşlığın inkişafına təkan verir. Qarşılıqlı səfərlər isə əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir, iqtisadi, siyasi və humanitar əməkdaşlıq üçün geniş imkanlar yaradır. Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə 6 dəfə, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana 3 dəfə səfər edib. Bu səfərlər iki ölkə arasında strateji dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayıb. Səfərlər zamanı imzalanan sənədlər və razılaşmalar əməkdaşlığın strukturunu və gələcək hədəflərini müəyyənləşdirir.



S.Fətəliyevanın sözlərinə görə, Prezident İlham Əliyev Əbu-Dabidə keçirilən "Gələcəyin Oyunları 2025" qlobal idman turnirinin açılış mərasimində iştirak edib. Dövlətimizin başçısının səfər çərçivəsində BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə ikitərəfli görüşü keçirilib. Bu səfərin məqsədi yalnız idman tədbirində iştirakla məhdudlaşmır, həm də Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının möhkəmlənməsi, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, həmçinin regionda stabilliyin qorunması baxımından böyük əhəmiyyət kəsb edir. Bu yanaşma həmçinin Azərbaycan və BƏƏ arasında dostluq və tərəfdaşlıq münasibətlərini daha da dərinləşdirir, gələcəkdə enerji və investisiya sahələrində yeni layihələrin həyata keçirilməsini asanlaşdırır. Tərəflər arasında imzalanmış sənədlərdə nəzərdə tutulmuş mexanizmlər iqtisadi-ticari əlaqələrin şaxələndirilməsinə, innovasiya və texnologiya sahəsində əməkdaşlığın gücləndirilməsinə, eləcə də sosial və humanitar sahələrdə birgə təşəbbüslərin inkişafına şərait yaradır. Nəticədə iki ölkə arasında əlaqələr yalnız kəmiyyət baxımından deyil, keyfiyyətcə də daha yüksək səviyyəyə çatır, bu isə regionda davamlı sabitlik və inkişaf üçün mühüm amil kimi çıxış edir. Nəzərə alaq ki, iki ölkə beynəlxalq platformalarda da fəal əməkdaşlıq edir. Bu baxımdan, Birləşmiş Millətlər Təşkilatı Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı xüsusi vurğulanmalıdır. Xüsusilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğu 2012-2013-cü illərdə BƏƏ-nin ölkəmizə göstərdiyi siyasi dəstək yüksək dəyərləndirilməlidir. Bu əməkdaşlıq tərəflərin beynəlxalq hüquqa və çoxtərəfli diplomatiyaya verdiyi önəmi nümayiş etdirməklə yanaşı, regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin və siyasi sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verir.

"Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində minatəmizləmə fəaliyyətinə göstərdiyi dəstək ikitərəfli münasibətlərin humanitar ölçüsünü aydın şəkildə nümayiş etdirir. BƏƏ hökumətinin bu məqsədlə ANAMA-ya 5 milyon ABŞ dolları məbləğində maliyyə yardımı ayırması postmünaqişə dövründə təhlükəsizliyin təmin olunmasına, bərpa və yenidənqurma proseslərinin sürətləndirilməsinə mühüm töhfədir. Bu addım eyni zamanda BƏƏ-nin Azərbaycanın ərazi bütövlüyünə və sülh gündəliyinə verdiyi siyasi, humanitar dəstəyin göstəricisidir" deyən Sevinc Fətəliyeva əlavə edib ki, bütövlükdə, Prezident İlham Əliyevin Əbu-Dabiyə səfəri ikitərəfli əlaqələrimizin daha da güclənməsinə əhəmiyyətli təsir göstərəcək.




# Qarşılıqlı etimada və marağa əsaslanan əməkdaşlıq

## Bu münasibətlər təkcə ikitərəfli deyil, həm də qlobal kontekstdə əhəmiyyət kəsb edir

Azərbaycan tarixi və mədəni əlaqələri, coğrafi mövqeyi və strateji əhəmiyyəti ilə Yaxın Şərq regionu ilə sıx əlaqələrə malikdir. Son illərdə isə enerji sahəsindəki böyük potensialı, siyasi sabitliyi və regional inkişafı dəstəkləyən təşəbbüsləri ilə Yaxın Şərq ölkələri ilə əməkdaşlığını genişləndirməkdədir. Bu əməkdaşlıq iqtisadi, ticarət, enerji, nəqliyyat və mədəniyyət sahələrində müxtəlif layihələri əhatə edir.

Azərbaycanın Yaxın Şərqdəki ən mühüm tərəfdaşlarından biri Birləşmiş Ərəb Əmirlikləridir (BƏƏ). İki ölkə arasında əlaqələr daha çox enerji, infrastruktur, ticarət və mədəniyyət sahələrində inkişaf etməkdədir.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi və iqtisadi münasibətlər müasir dövrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, qarşılıqlı etimada və uzunmüddətli maraqlara əsaslanan əməkdaşlıq modeli kimi formalaşıb. Bu münasibətlər təkcə ikitərəfli deyil, həm də regional və qlobal kontekstdə əhəmiyyət kəsb edir.

Azərbaycan BƏƏ üçün Cənubi Qafqazda etibarlı iqtisadi tərəfdaş, BƏƏ isə Azərbaycan üçün Yaxın Şərq və Körfəz regionuna açılan mühüm bazar rolunu oynayır.

Prezident İlham Əliyevin BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvətilə dekabrın 17-də bu ölkəyə səfəri iki dövlət arasında strateji tərəfdaşlığın yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir.

Səfər zamanı Azərbaycan Prezidenti hər il keçirilən "Gələcəyin Oyunları" turnirini izləyib. İdmançıların həm fiziki, həm də rəqəmsal oyunlar üzrə bacarıqlarını nümayiş etdirdiyi qlobal platformanın təşkilatçısı "Phygital International" fiziki və rəqəmsal oyunların birgə keçirilməsini təşviq edir. Yarış iki mərhələdə keçirilir: idmançılar ilkin mərhələdə fiziki idman növləri, ikinci mərhələdə isə rəqəmsal oyun bacarıqları üzrə sınaqdan keçirilir. Dekabrın 18-dən 23-dək Əbu-Dabi Milli Sərgi Mərkəzində təşkil olunacaq builki turnirə müxtəlif ölkələrdən idmanın 11 növü üzrə iştirakçıların qatılması nəzərdə tutulub.

Səfər çərçivəsində İlham Əliyevin BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə ikitərəfli görüşü keçirilib. Bu səfərin məqsədi yalnız idman tədbirində iştirakla məhdudlaşmır, həm də Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının möhkəmlənməsi, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, həmçinin regionda sabitliyin qorunması baxımından böyük əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə 6 dəfə, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana 3 dəfə səfər edib. Bu səfərlər iki ölkə arasında strateji dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayıb. Belə ki, 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" imzalanıb. Bu sənədlər Azərbaycan və BƏƏ arasında ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsinə xidmət edir. Xüsusilə siyasət, iqtisadiyyat, ticarət, enerji və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsini təmin edir, qarşılıqlı faydalı layihələrin daha səmərəli və davamlı şəkildə həyata keçirilməsi üçün mükəmməl hüquqi və institusional zəmin yaradır. Birgə Bəyannamə iki ölkə arasında etimadın artırılmasına, qarşılıqlı dialoqun intensivləşdirilməsinə və uzunmüddətli əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsinə imkan verir.

Azərbaycan və BƏƏ, eyni zamanda Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla beynəlxalq platformalar çərçivəsində də uğurla əməkdaşlıq edirlər. Xüsusilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğu 2012-2013-cü illərdə BƏƏ-nin ölkəmizə göstərdiyi siyasi dəstək yüksək qiymətləndirilir. Bu əməkdaşlıq tərəflərin beynəlxalq hüquqa və çoxtərəfli diplomatiyaya verdiyi önəmi nümayiş etdirməklə yanaşı, regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin və siyasi sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verir.

Xatırladaq ki, bu il sentyabrın 16-da İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Şuşada qəbul etmişdir. Həmin görüşdə ikitərəfli əlaqələri dəyərləndirən dövlətimizin başçısı vurğulamışdır ki, münasibətlər qardaşlıq, dostluq üzərində qurulub. İmzalanmış çoxsaylı sənədlər bu əlaqələri yeni səviyyəyə qaldıracaq. İlham Əliyev imzalanan 14 sənədin içərisində birinin böyük əhəmiyyət daşıdığını vurğulayaraq demişdir: "Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir".

Bu görüş zamanı həmçinin vurğulanmışdır ki, siyasi əlaqələr çox uğurla inkişaf edir. Son vaxtlar qarşılıqlı sərmayə qoyuluşu tərəfləri çox şad edir. Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Yeni imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir.

Bütün bunlar onu deməyə əsas verir ki, əlaqələr iki ölkənin liderləri arasında yüksəksəviyyəli şəxsi anlaşma və etimadla daha da möhkəmləndirilir. Prezidentlərin görüşü həm onların şəxsi dostluğunun möhkəmlənməsinə, həm də Azərbaycan ilə BƏƏ arasında strateji tərəfdaşlığın uzunmüddətli inkişafına mühüm töhfə verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Aİ-nin sülh gündəliyinə zidd fəaliyyəti qəbuledilməzdir

Azərbaycanın təşəbbüsləri sayəsində hazırda Cənubi Qafqazda formalaşdırılan sülh mühitinin fonunda Avropa İttifaqının (Aİ) Azərbaycana qarşı qərəzli addımları xüsusi diqqət çəkir. Hələ Vətən müharibəsinə qədərki dövrdə ölkəmizə yanaşmada ikili standartlar sərgiləyən Aİ-nin 44 günlük savaş boyunca və post-münaqişə dövründə də respublikamızı hədəf alan kampaniya aparmasının şahidi olmuşduq.

Bu istiqamətdə Avropa Parlamentinin (AP) xüsusi canfəşanlıq sərgiləməsi isə xüsusilə qabarıq özünü göstərirdi. Vaxtaşırı ölkəmizə qarşı qətnamə adı altında kağız parçaları qəbul edən AP-nin yalnız bir məqsədi olub: Cənubi Qafqazda münaqişə səhifəsi bitməsin. Buna görə də ölkəmizə qarşı yalan və böhtanlardan ibarət qətnamələr qəbul etməkdən, necə deyərlər, doymaq bilməyib.



"Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam", - deyə hələ üç il əvvəl Prezident İlham Əliyev Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman Aİ-nin bu qurumunun ölkəmizə qərəzini belə bildirmişdi və vurğulamışdı ki, bəzən elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir.

### Postmünaqişə dövrünün reallıqları təhrif edilib

Ancaq bütün bu qərəz kampaniyası Azərbaycanın qətiyyətli siyasəti və sülh səyləri ilə darmadağın edildi və heç bir işə yaramadı. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin edərək bölgədə separatizmə şərait yaradan xarici qüvvələrin əl-qollarını bağladı. Aİ-nin Ermənistan üzərindən gətirib sərhədlərimizə yığdığı dırnaqarası "müşahidə missiyası" da bölgədə sülhə yox, qarşıdurmaya xidmət edən missiya kimi fəaliyyət göstərir. Binokl diplomatiyası həyata keçirən bu missiyanın sülhün de-fakto təmin edildiyi, tərəflərin etimad quruculuğu istiqamətində müsbət addımlar atdığı, kommunikasiyaların açıldığı, bu yerdə Azərbaycanın Ermənistana tranzit məhdudiyyətini artıq aradan qaldırdığını da xüsusi vurğulamalıyıq, yəni məsələlərin silahlarla deyil, dialoq vasitəsilə həll edildiyi bir dövrdə Cənubi Qafqazda hələ də israrla varlığını sürdürməsi heç cür başa düşülən deyildir.

Dekabrın 2-də Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd də göstərir ki, adıçəkilən qurum hazırda bölgədə normallaşma istiqamətində gedən proseslərlə razı deyil. Eyni zamanda dildə barış tərəfdarı olduğunu deyən Ermənistan havadarlarının dəstəyilə bu prosesə mane olmağa çalışır.

Adıçəkilən sənəddə postmünaqişə dövrünün reallıqlarının təhrif edildiyi və burada sülh gündəliyinə zidd olan məsələlərin öz əksini tapdığı açıq şəkildə görünür.

Qarabağda həyata keçirilən antiterror tədbirlərindən sonra bu ərazidə yaşayan erməniəsilli əhaliyə Azərbaycan bayrağı altında yaşamaq təklif olundu, onlara hər cür şərait və təhlükəsizlik zəmanəti verildi. Onu da qeyd etməliyik ki, antiterror tədbirləri aparılanda da mülki əhaliyə zərər verilməməsi üçün lazım olan bütün tədbirlər görüldü və sözün həqiqi mənasında bu sayədə bir erməninin belə burnu qanamadı. Lakin erməniəsilli əhali könüllü şəkildə ölkəmizi tərk etməyi seçdi və gedərkən də onlara hər cür şərait yaradıldı, hətta qida ilə də təmin edildilər.

O da gün kimi aydın idi ki, qərəzli dairələr Qarabağdan gedən erməniəsilli şəxslərdən öz çirkin məqsədləri üçün istifadə edəcəklər.

Dekabrın 2-də qəbul edilən sənədin həm giriş hissəsində, həm də bəzi bölmələrində Qarabağdan könüllü şəkildə Ermənistana miqrasiya edən sakinlərə istinadən "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri ifadəsi işlədilib", - deyə yazılanlar bunun təsdiqidir.

Ancaq bir dəfə də olsun Aİ-dən indiki Ermənistan ərazisindən deportasiya edilən yüz minlərlə qərbi azərbaycanlının qayıdış hüququnu dəstəkləyən hansısa açıqlama, qəbul edilən hansısa sənəd görməmişik.

Həmin sənəddə insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər törətməkdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslərin "əsir" statusunda qeyd edilməsi də Aİ-nin anti-Azərbaycan ritorikasından xəbər verir.

### Sülh prosesi baxımından narahatlıq doğuran məqamlar

Azərbaycan Xarici İşlər Nazirliyinin məsələyə dair şərhində bildirilir ki, 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Ermənistanın regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsünü dəstəkləyən çoxsaylı müddəaların əks olunmasına baxmayaraq, 8 avqust Vaşinqton sammiti zamanı normallaşma prosesi çərçivəsində əldə edilmiş və mühüm əhəmiyyət kəsb edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad edilməməsi ciddi narahatlıq doğurur.

O da vurğulanır ki, Azərbaycanla Ermənistan arasında paraflanmış saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməməklə bağlı öhdəlik nəzərə alındıqda, Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə olunan Aİ-nin Ermənistandakı Müşahidə Missiyasının (EUMA) fəaliyyətinə xitam vermək əvəzinə, EUMA-nın mövcudluğunun qorunmasının və missiyanın tam operativliyinin təmin olunmasının prioritetləşdirilməsi digər narahatlıq mənbəyidir.

Dekabrın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç ilə görüşüb.

Milli Məclisin Sədri görüşdə diplomata Azərbaycan və Ermənistan sülh prosesi, o cümlədən parlamentlər arasında etimad quruculuğu tədbirləri haqqında məlumat verib.

Spiker Sahibə Qafarova bu kontekstdə "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"də Azərbaycan-Ermənistan sülh prosesi baxımından narahatlıq doğuran məqamlara toxunub.

Həmçinin Sahibə Qafarova Avropa Parlamentinin Azərbaycan əleyhinə qətnamələrinə toxunaraq, bu gün regionda mövcud olan reallıqların, Azərbaycan və Ermənistan arasında sülh prosesində əldə olunmuş nailiyyətlərin bu qətnamələrin nə dərəcədə qərəzli olmasını bir daha sübut etdiyini deyib.

Aİ-nin Azərbaycanı hədəf alan fəaliyyətinin səngiməməsi təəssüf doğurur və heç şübhəsiz bu addımlar Azərbaycan-Aİ münasibətlərinə zərbə vurur. Buna görə də yaxşı olar ki, bu qurum sülh prosesinə zərbə vurmaq əvəzinə, bölgədə məhz Azərbaycanın təşəbbüs və səyləri ilə formalaşdırılan sabitlik və əməkdaşlıq mühitinə töhfə versin.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Dəmir iradə"nin polad yolları

## Qarabağ və Şərqi Zəngəzurda qurulan dəmir yolları regionu ölkənin ümumi nəqliyyat şəbəkəsinə qovuşdurur

Ötən 5 ildə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin mühüm istiqamətlərindən biri nəqliyyat infrastrukturunun yenidən qurulmasıdır. Xüsusilə dəmir yolu xətlərinin inşası regionun iqtisadi, sosial və strateji inkişafında mühüm rol oynayır. Yeni dəmir yolları Qarabağ və Şərqi Zəngəzuru ölkənin ümumi nəqliyyat şəbəkəsinə birləşdirir, insanların hərəkətini rahatlaşdırır, yük daşımalarını asanlaşdırır və bölgəyə investisiya cəlb olunmasını şərtləndirir.



Məhz bu amil dövlətdən regionun nəqliyyat-logistika potensialının bərpasına xüsusi diqqət yetirməyi tələb edir. Qarabağın uzun illər işğalda qalmış və o üzdən tamamilə dağılmış dəmir yolu infrastrukturu bu gün faktiki olaraq yenidən qurulur. Layihələr hazırlanarkən yalnız mövcud xətlərin bərpası deyil, həm də müasir texniki tələblərə cavab verən, təhlükəsizlik və səmərəlilik prinsiplərinə əsaslanan yeni dəmir yolu marşrutlarının yaradılması əsas götürülür. Və elə bu məqamda qeyd edək ki, həmin istiqamətdə görülən işlər artıq konkret nəticələrlə özünü göstərir.

Həyata keçirilən layihələrin miqyası rəqəmlərdə də aydın şəkildə əks olunur. Fakt: yeni salınan magistralların ox üzrə ümumi uzunluğu 185,5 kilometrə çatır, yan yollarla birlikdə isə bu göstərici 229,257 kilometrdir. Qarabağın və Şərqi Zəngəzurun mürəkkəb və çətin relyefi dəmir yolu inşasını adi tikinti prosesindən çıxararaq yüksək mühəndislik texnologiyalarının tətbiqini tələb edən layihəyə çevirib. Bu çərçivədə ümumi uzunluğu 5204,4 metr olan 49 körpünün, eləcə də 2345 metr uzunluğunda 4 tunelin inşası nəzərdə tutulub. Artıq 4441 metr uzunluğunda 42 körpünün tikintisi başa çatdırılıb, onlardan 3-ü istifadəyə verilib. Digər körpülərdə və tunellərdə isə işlər fasiləsiz və ardıcıl şəkildə davam edir.

Bərdə-Ağdam və Horadiz-Ağbənd dəmir yolu layihələri Qarabağın və Şərqi Zəngəzurun dirçəliş salnaməsində xüsusi yer tutur. Uzun illər dağıntı və təcrid içində qalan ərazilər üçün dəmir yolu xətləri sadəcə nəqliyyat arteriyası deyil, eyni zamanda həyata qayıdışın, inkişafın və sabaha inamın rəmzidir. Bu layihələr regiona yeni iqtisadi nəfəs verir, azad edilmiş əraziləri ölkənin ümumi təsərrüfat dövriyyəsinə qaytarır, doğma yurdlarına dönən insanlar üçün yeni yaşayış və əmək imkanları yaradır. Regionun gələcək inkişafı məhz bu polad yollar üzərindən sürətlə irəliləyir. Təbii ki, bu polad xətlər təkcə xəritədə görünən yollar deyil, Qarabağın və Şərqi Zəngəzurun canlanmasının, insanların doğma yurdlarına qayıdışının və bölgənin inkişafının göstəricisidir. Hər kilometr yol, körpü və tunel dirçəlişin gerçəkliyinin işarəsidir. Bu vaxta kimi görülən işlər Böyük qayıdışın ölçüsünü açıq şəkildə nümayiş etdirir.

Qeyd etdiyimiz gerçəklik barədə faktlara nəzər salaq. 47,1 kilometrlik Bərdə-Ağdam dəmir yolu xətti iki mərhələdə bərpa edilib. Birinci mərhələ Bərdə-Təzəkənd, ikinci mərhələ Təzəkənd-Ağdam marşrutunu əhatə edir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin təməli 4 oktyabr 2022-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub, 2025-ci il mayın 10-da isə istifadəyə verilib. Yeni kompleks yalnız dəmir yolu kimi deyil, eyni zamanda regionun mərkəzlərindən birində müasir nəqliyyat qovşağının formalaşmasını təmin edən mühüm strateji obyekt kimi diqqət çəkir.

Horadiz-Ağbənd dəmir yolu xətti isə 110,4 kilometr uzunluğundadır və strateji əhəmiyyəti ilə seçilir. Bu xətt gələcəkdə Zəngəzur istiqamətində böyük nəqliyyat dəhlizinin əsas qollarından biri olacaq. Ərazinin mürəkkəb relyefinə baxmayaraq, işlər üç mərhələdə ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilir. Layihənin icra səviyyəsi artıq 68 faizdir: birinci hissə olan Horadiz-Soltanlı üzrə işlərin 89 faizi tamamlanıb. İkinci hissə Soltanlı-Mincivan üzrə 80 faizə çatıb. Üçüncü hissə isə Mincivan-Ağbənd üzrə 44 faiz yerinə yetirilib. Bu dəmir yolu xətləri təkcə yük və sərnişin daşımalarını təmin edən yox, eyni zamanda regionun iqtisadi inkişafını sürətləndirən, Qarabağın gələcəyinə ümid və inam bəxş edən layihələrdir.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən dəmir yolu layihələri bu gün yük və sərnişin daşımalarını təmin edir, üstəlik regionun sosial-iqtisadi canlanmasının, yeni yaşayış məntəqələrinin salınmasının və investisiya mühitinin inkişafının əsasını qoyur. Hər yeni xətt Qarabağın və Şərqi Zəngəzurun ölkənin ümumi nəqliyyat sisteminə inteqrasiyasını sürətləndirir, insanlara doğma yurdlarına qayıtmaq və orada sabit həyat qurmaq üçün əlavə imkan yaradır. Bu layihələr eyni zamanda ərazilərin gələcək strateji rolunu daha çox gücləndirir.

Belə strateji əhəmiyyətli layihələrdən biri də Ağdam-Xankəndi dəmir yolu xəttidir və onun icrası artıq konkret mərhələyə qədəm qoyub. Regionun nəqliyyat sistemində xüsusi önəm daşıyan 28 kilometrlik Ağdam-Xankəndi dəmir yolu artıq icra mərhələsindədir. 2025-ci il iyulun 3-də Prezident İlham Əliyev tərəfindən Xankəndi dəmir yolu və Avtovağzal Kompleksinin təməli qoyulub. Bu marşrut üzrə layihələndirmə işləri 73, torpaq işləri isə 16,8 faiz icra olunub. Xəttin istifadəyə verilməsi Xankəndinin regional iqtisadi şəbəkələrə tam reinteqrasiyasını təmin edəcək və Qarabağın gələcək inkişafına yeni təkan verəcək.

Beləliklə, ötən 5 ildə Qarabağ və Şərqi Zəngəzurda qurulan dəmir yolları regionu ölkənin ümumi nəqliyyat şəbəkəsinə birləşdirir, yeni iqtisadi imkanlar açır, turizmin inkişafına təkan verir, iş yerləri yaradır və insanların doğma yurdlarında rahat həyat qurmalarına şərait yaradır. Prtezident İlham Əliyevin birbaşa nəzarəti altında həyata keçirilən işlər plan üzrə davam edir. Qarabağ və Şərqi Zəngəzur bugünkü inkişaf və sabahın ümidləri ilə dirçəlir - polad yollar üzərindən gələcəyə irəliləyən, canlı və ümid dolu region kimi.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Göygöldə şəhid ailələri onlara göstərilən diqqətdən razıdırlar

**Göygöldə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın ailə üzvləri ilə görüş keçirilmişdir. Rayon icra hakimiyyətində keçirilən görüşdə şəhid ailələrinin arzu və istəkləri dinlənilmiş, problemləri ilə maraqlanılmışdır.**



Rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək qanı ilə tarix yazan igid oğullarımızın Azərbaycan xalqının qəlbində daim yaşayacaqlarını, əbədiyyətə qovuşan şəhidlərimizin əziz xatirəsinin həmişə ehtiramla yad ediləcəyini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin ailələrinə, o cümlədən müharibə əlillərinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini məhz şəhid ailələrinin, müharibə veteranlarının, əlillərin sosial müdafiəsinin gücləndirilməsi, onlarla bağlı məsələlərin vaxtında həllinə nail olunması təşkil edir.

Şəhid valideynləri çıxış edərək övladlarının keçdikləri döyüş yolundan söz açmış, onlarla bağlı xatirələrini danışmışlar. Göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirən şəhid ailələrinin üzvləri onların müraciətlərinə hər zaman həssaslıqla yanaşıldığını qeyd etmiş, keçirilən bu cür görüşlərin qarşılaşdıqları problemlərin həllində vacib rol oynadığını bildirmişlər.

***S.YUNİSOĞLU,* *"Azərbaycan"***

## Samux - bu günü dünənindən, sabahı bu günündən abad

**Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çərçivəsində Samuxda görülən işlər onu deməyə əsas verir ki, ölkəmizin digər bölgələri kimi, bu rayon da inzibati cəhətdən nisbətən gənc olmasına baxmayaraq, dövlətin himayəsi sayəsində xeyli irəli getmiş, kənd və qəsəbələrin siması yenilənərək abad görkəm almış, əhalinin güzəranı xeyli yaxşılaşmışdır.**




2025-ci il də bu baxımdan istisna olmamışdır. Aparılan abadlıq və quruculuq işləri davam etmiş, əhalini rahatsız edən məsələlərin həlli üçün konkret addımlar atılmışdır. Bu dövrdə həmçinin rayonun kommunal infrastrukturu yenilənmiş, sakinlərin normal məişətinin təmin edilməsi üçün bir sıra layihələr həyata keçirilmişdir. Məsələn, Samux şəhərində 3 hektara yaxın ərazidə yeni park salınaraq istifadəyə verilmişdir. Parkın ərsəyə gəlməsi üçün 11200 kvadratmetr tamet daşlardan, 1400 kvadratmetr aqlaydan, 1000 paqonometr bardürdən istifadə olunmuşdur. Ümumilikdə 4000 kvadratmetr əraziyə yaşıl ot örtüyü, dekorativ ağac və gül kolları əkilmişdir. 2 bulaq və 4 fəvvarə, o cümlədən 4 axar su üzərində körpü, qrunt sularının axıdılması üçün parkboyu yeraltı boru quraşdırılmışdır. Yaşlı və gənc nəsil üçün 8 söhbətgah, uşaqların əyləncəsi üçün 2 oyun meydançası, açıq havada düzəldilmiş şahmat oyun meydançası, həmçinin kompleksin mərkəzində saat qülləsi inşa edilmişdir. Parkın ətrafındakı inzibati binaların dam örtükləri dəyişdirilmiş, ərazisində usə müasir görkəmli ictimai iaşə obyektləri açılmışdır.

Bakı-Gəncə avtomobil yolunun rayonun Zazalı kəndi istiqamətində olan girişində, Samux-Gəncə avtomobil yolunda, Heydər Əliyev prospekti ilə Kolayır prospektinin kəsişməsində yerləşən ərazilərdə də yenidənqurma işləri aparılmışdır. Bunlardan başqa, Samuxun ən uzun küçələrindən sayılan Heydər Əliyev prospekti 13-17 metr genişləndirilərək asfaltlanmışdır. Ərazidə həmçinin piyada zolaqları salınmış, dekorativ ağac və gül kolları əkilmiş, piyadalar üçün nəzərdə tutulmuş səkilərə tamet daşlar döşənmişdir. Prospektdən keçən yerüstü qaz boru kəməri polietilen, beton işıq dirəkləri dəmir borularla əvəz olunmuşdur. Fərdi yaşayış evlərinin darvaza hissələri rənglənmiş, fasad və çöl hasar hissələri aqlayla üzlənmişdir. Samux-Gəncə və Samux-Çobanabdallı avtomobil yollarında yüksəkgərginlikli elektrik xətləri yerin altına köçürülmüşdür.

Abadlıq və yenidənqurma işləri şəhərin digər küçələrindən də yan keçməmişdir. Bir sıra küçələrin asfalt örtüyü təzələnmiş, səkiləri tametlənmişdir. Samux-Kolayır alternativ avtomobil yolunda da təmir işləri aparılmışdır. Samux-Çobanabdallı avtomobil yolunda isə işıqlandırma işləri başa çatmışdır. Bununla yanaşı, Qarayeri-Gəncə avtomobil yolu və 4 kilometrdən artıq ara küçələr də gecə qaranlığından xilas olmuşlar.

***Sabir ƏLİYEV,* *"Azərbaycan"***

### İlə yekun vurulur

## İlləri uğurlu, övladları qürurlu

### Tərtər 2025-ci ili də yüksək göstəricilərlə yola salır

**2019-cu ildə pambıqçıların respublika müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Mən bir daha demək istəyirəm ki, Tərtərdə pambıqçılıqda əldə edilmiş təcrübə öyrənilməlidir. Doğrudan da, çox böyük işlər görülübdür, özü də nəzərə almalıyıq ki, bu, düşmənlə üz-üzə yerləşən rayondur və tərtərlilər həmişə öz qəhrəmanlıqlarını, vətənə bağlılıqlarını göstərmişlər".**

Həmin müşavirədə dövlət başçısı həmçinin qeyd etmişdir ki, pambıqçılıqdakı bu yüksək nəticə ağır vəziyyətdə əldə edilib və doğrudan da, yüksək qiymətə layiqdir. O illər bədnam qonşular rayonun suyunu kəsmişdilər. Tərtərlilərin sülh arzusu ilə yanaşı, bir böyük istəkləri də vardı - əkib-becərdikləri torpaq susuzluqdan yanmasın.

İndi bütün bu arzular reallığa çevrilib. 5 il əvvəl Müzəffər Ali Baş Komandanın "dəmir iradə"si, uzaqgörən siyasəti, oğullarımızın qəhrəmanlığı sayəsində əldə olunan Zəfər bizə yalnız torpaqlarımızı qaytarmadı, ölkədə əmin-amanlıq, sabitlik yaratdı. Hər bir bölgədə, o cümlədən Tərtərdə iqtisadiyyatımızı daha da inkişaf etdirmək, əhalinin güzəranını daha da yaxşılaşdırmaq üçün yeni imkanlar açıldı.

"Konstitusiya və Suverenlik İli"ndə tərtərlilərin təsərrüfatın müxtəlif sahələrində əldə etdiyi uğurlar bunun əyani sübutudur. Öncə qeyd edək ki, müharibənin başa çatması ilə Tərtərin ölkənin coğrafiyasında tutduğu əhəmiyyətli mövqe heç də azalmayıb. Bir zamanlar rayonun əhalisi çətin müharibə şəraitində əzmkarlığını, Vətənə bağlılığını nümayiş etdirirdisə, indiki dinc şəraitdə bunun əhəmiyyəti daha da artıb. Qarabağın giriş qapısı hesab edilən Tərtər bu gün təkcə region miqyasında deyil, ölkə səviyyəsində nümunəvi bir bölgəyə çevrilib.

Bərəkətli və məhsuldar Tərtər torpağı pambıq əkini üçün olduqca əlverişlidir. Rayon ərazisində 2025-ci il üçün 3 şirkət tərəfindən fermerlərlə müqavilələr bağlanmışdır. "Prime cotton" MMC tərəfindən 309 istehsalçı ilə 1089,53, "Azərpambıq ASK" MMC tərəfindən 270 istehsalçı ilə 1323,24, "Elakoton" MMC tərəfindən 2 istehsalçı ilə 384 hektar ərazi üçün pambıq müqaviləsi bağlanaraq əkin aparılmışdır. Ümumilikdə rayon ərazisində 581 istehsalçı ilə 2796,77 hektar pambıq əkini aparılmışdır.

Hazırda yığım davam edir. "Prime cotton" MMC tərəfindən 1087,03 hektar ərazidən 3945,213 ton pambıq məhsulu götürülmüşdür. Məhsuldarlıq 36,29 sentnerdir. "Azərpambıq ASK" MMC tərəfindən 1323,24 hektardan 4521,743 ton məhsul toplanaraq məhsuldarlıq 34,17 sentnerə çatmışdır. "Elakoton" MMC tərəfindən isə 384 hektar ərazidən 2021,64 ton məhsul yığılmışdır. Məhsuldarlıq 52 sentneri üstələmişdir. Ümumilikdə bu günə qədər rayon üzrə 2794,2 hektardan 10488,596 ton pambıq yığılmışdır. Məhsuldarlıq 37,5 sentner civarındadır.

Bəzi fermerlərin əldə etdiyi göstəricilər isə daha yüksəkdir. Hafiz Hüseynov becərdiyi 10 hektar pambıq sahəsinin hər hektarından 61 sentner məhsul götürüb. Deyir ki, pambıqçılıq xeyirli sahə olduğu kimi, zəhməti də çoxdur: "Aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə görüldükdə uğur qazanmaq, ailə büdcəsini möhkəmləndirmək mümkündür. Bu bitkinin suya tələbatı çoxdur. Müharibədən əvvəl Suqovuşan və Sərsəng su anbarları işğal altında olduğundan bəzən zəhmətlə becərilən məhsuldan istənilən nəticə alınmırdı. İndi şükür, hər şey yaxşıdır".





Fazil Vəliyevin 37 hektar pambıq sahəsi var. İndiyəcən hər hektardan 57 sentner məhsul götürüb. İlham Məmmədov hektardan 58, Rəhim Abbasov isə 59 sentner məhsul toplayıb. Fazil Vəliyev deyir: "Prezident İlham Əliyevin Tərtər pambıqçılarının işi haqqında dediyi xoş sözlər həmişə yadımızdadır. Çalışırıq ki, bu yüksək etimadı doğruldaq. Bilirik ki, nə qədər yaxşı işləsək, dövlətimiz də güclü olar, ailəmiz, övladlarımız da yaxşı dolanar".

Pambıqçılıqla yanaşı, Tərtərdə taxılçılığın inkişafına da böyük maraq var. Belə ki, 2025-ci ilin biçin mövsümündə rayonda hər hektardan 40 sentner buğda, 39,4 sentner arpa götürülüb. 2025-2026-cı ilin məhsulu üçün 2506,5 hektarda arpa, 1989 hektarda buğda, 100 hektarda xəsil əkini aparılıb.

Torpağın qədrini bilən, onun hər qarışından səmərəli istifadə edən tərtərlilər növbəli və təkrar əkinə üstünlük verir, həmçinin əvvəllər çox inkişaf etməyən sahələrdə uğur qazanırlar. Belə sahələrdən biri də dən üçün günəbaxandır. Cari il 1767 hektar günəbaxan sahəsindən 4463,4 ton məhsul istehsal edilib, məhsuldarlıq 25,3 sentner olub. Rayonda aş lobyası, sorqo, dən üçün qarğıdalı, kartof, tərəvəz, şəkər çuğunduru, yem bitkiləri də becərilir. Tərəvəz əkinlərinin genişləndirilməsi nəticəsində əhali ekoloji cəhətdən təmiz məhsullarla təmin olunur.

Son vaxtlar Tərtərdə meyvə bağları salınmasına da böyük maraq var. Hazırda 2571,8 hektarda meyvə, 44,5 hektarda giləmeyvə bağları, 7,1 hektarda üzümlüklər mövcuddur. Bu sahəni seçən fermerlər bildirirlər ki, meyvə bağlarının bar verməsi çox vaxt aparsa da, nəticədə əldə edilən qazanc çəkilən xərcləri doğruldur. Cari il rayonda 21572,8 ton meyvə, 889,9 ton giləmeyvə, 643,8 ton üzüm toplanıb ki, bu həm qazanc, həm də rayon və ölkə üzrə meyvə istehsalına sanballı köməkdir. Bu meyvələr eləcə də xarici bazarlara çıxarılır.

Tərtərdə kənd təsərrüfatının digər qolu - heyvandarlıq da inkişaf edir. Ən iri heyvandarlıq təsərrüfatı Bəyimsarov kəndində yerləşir. Fermer Habil İbrahimov tərəfindən yaradılan təsərrüfatda südlük istiqamətli xarici cinsdən olan inəklər bəslənilir. Təsərrüfatın özünün kiçik süd emalı müəssisəsi də fəaliyyət göstərir. Eyni zamanda əkin sahələri də var ki, bunun da hesabına ilboyu mal-qara yem sarıdan korluq çəkmir. Digər südlük istiqamətli təsərrüfat Sarov kəndində yerləşir. Sahibə Hətəmovaya məxsus bu təsərrüfatda 80 baş südlük istiqamətli inək bəslənilir. Sahibə xanım bildirir ki, hazırda heyvandarlıq məhsullarına tələbat böyükdür. Onların da istehsal etdiyi südün alıcısı, necə deyərlər, başlarının üstündə olduğu üçün gəlirlə işləyirlər. Amma məqsədləri həm də əhaliyə təmiz və keyfiyyətli məhsullar çatdırmaqdır.

Tərtər Aqrar İnkişaf Mərkəzinin heyvandarlıq sektorunun müdiri Tural Həsənovun dediyinə görə, rayonda qoyunçuluq sahəsində təcrübə olsa da, hazırda iri qoyunçuluq təsərrüfatları azdır. Cari ildə rayon Baytarlıq İdarəsinin həyata keçirdiyi profilaktik tədbirlər nəticəsində ölkə üzrə heyvandarlıqda yayılan dabaq xəstəliyinin genişlənməsinin qarşısı alınmış və ciddi ziyan olmamışdır.

Yeni ilə sayılı günlər qalır. 5 il əvvəl tərtərlilər bayramları səksəkəli qarşılayırdılar. Çünki elə bir bayram olmazdı ki, məkrli düşmən məhz həmin günlər hansısa bir hadisə törədib insanların ovqatını pozmasın. İndi isə hər kəsin üzü gülür. Yaraşıqlı Mərkəzi meydanda şam ağacı bəzədilib. Tərtərdə təkcə meydan deyil, hər bir küçə abad və yaraşıqlıdır. Müharibədən sonrakı dövrdə küçələrdə abadlıq, quruculuq işlərinə böyük diqqət göstərilib. Yenicə təmir olunmuş küçələrə şəhid adları verilib. Elə həftə olmaz ki, tərtərlilər elliklə ağacəkmə aksiyaları, iməciliklər təşkil etməsinlər. Yaşıllıqların sayı artırılır, mövcud yaşıllıqlara qulluq göstərilir, təmizlik işləri görülür. Rayon mərkəzi ilə yanaşı, bu işlər kəndləri də əhatə edir.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədovun iş gününün böyük bir hissəsi tərtərlilərin arasında keçir. Həftənin iki günü kəndlərdə keçirilən səyyar qəbul-görüşlər zamanı yerlərdəki vəziyyət ətraflı təhlil olunur, nöqsan və çatışmazlıqlar öyrənilir və operativ həll edilir. Bu görüşlərin nəticəsində bəzən diqqətdən yayınan, xırda görünən, əslində isə kəndli üçün böyük əhəmiyyət daşıyan problemlər aradan qaldırılır. Məsələn, kəndə gələn su arxları təmizlənir, kəndarası yollara çınqıl tökülür, yararsız işıq dirəkləri dəyişdirilir və s. Rayon rəhbərliyi şəhid və qazi ailələrinə də tez-tez baş çəkir, onların xeyir-şər işlərində rayon ictimaiyyəti ilə birlikdə yaxından iştirak edir. Deyir ki, şəhid ailələri və qazilərin kədəri kədərimiz, sevincləri sevincimizdir.

Beləcə, tərtərlilər 2026-cı ilin astanasına gəlib çıxıblar. Qarşıda isə onları daha məsuliyyətli işlər gözləyir. Amma problem yoxdur. Çünki ölkədə, o cümlədən Tərtərdə əmin-amanlıqdır. Güllələr atılmır, toplar guruldamır. Bu gün bərəkətli çöllərin sükutunu kənd təsərrüfatı traktorlarının, maşın-mexanizmlərin səsi pozur. Dünən döyüş meydanında düşmənə qan udduran tərtərlilər bu gün əmək cəbhəsində hünər göstərir, halal zəhmətləri ilə bolluq yaradır, ölkə süfrəsinin barını-bəhərini artırırlar.

***Lazım QULİYEV,* *"Azərbaycan"***

## Qubada keçirilən tədbirdə tolerantlıq mədəniyyətinin təməllərindən söz açılıb

**Quba Mərkəzləşdirilmiş Kitabxana Sistemində rayon icra hakimiyyəti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba-Xaçmaz regional bölməsi, İnsan hüquqları üzrə müvəkkilin (ombudsman) Şimal regional mərkəzi və rayon kitabxanalarının birgə təşkilatçılığı ilə "Təhsil, hüquq və din: tolerantlıq mədəniyyətinin təməli" mövzusunda maarifləndirici tədbir keçirilib.**

Tədbirdə Azərbaycanın əsrlərboyu formalaşmış tolerantlıq ənənələri, ölkəmizdə yaşayan müxtəlif xalqlar və dinlərin nümayəndələri arasında dostluq, qarşılıqlı hörmət və birgəyaşayış mühiti barədə ətraflı məlumat verilib, ölkəmizdə həyata keçirilən multikulturalizm siyasəti, dəyərlərin qorunub saxlanması və milli birliyin gücləndirilməsindəki rolu haqqında görülən işlərdən söz açılıb. Vurğulanıb ki, müzakirə edilən məsələ olduqca aktual və vacib bir mövzudur. Cəmiyyətin inkişafında bu üç əsas sahənin rolu danılmazdır. Tolerantlıq - fərqliliyə hörmət, başqasının fikrinə, inancına dözümlü yanaşmaq, həm təhsildə, həm hüquqda, həm də dini dəyərlərdə öz əksini tapmaqdır. Tolerantlıq isə insanlara fərqli baxışlarına, dininə, dilinə, mədəniyyətinə və həyat tərzinə hörmətlə yanaşmaqdır. Təhsil sahəsində tolerantlıq şagird və tələbələrə bərabər yanaşmanı, müxtəlif fikirlərin sərbəst ifadəsini və qarşılıqlı anlayışı təşviq edir. Humanitar sahədə tolerantlıq isə mədəniyyətlərarası dialoqu, empatiyanı və dinc birgəyaşayışı dəstəkləyir. Müasir cəmiyyətin inkişafı üçün bu anlayışın təməl dəyər kimi formalaşdırılması olduqca vacibdir. Çıxışlarda həmçinin qeyd edilib ki, tolerantlıq həm də vətəndaşların bir-birinə hörmətlə yanaşmasını və sosial sabitliyi təmin edir. Təhsil düşüncəni, hüquq ədaləti, din mənəviyyatı formalaşdırır. Bu üç sütunun üzərində qurulan tolerantlıq mədəniyyəti isə həm fərdi, həm də cəmiyyəti sülhə, qarşılıqlı anlaşmaya və sabitliyə aparır. Tolerantlıq - hüquqi baxışdan cəmiyyətdə fərqli düşüncələrə, dinlərə, millətlərə və həyat tərzinə hörmətlə yanaşmaq prinsipidir. Bu, yalnız əxlaqi yox, eyni zamanda konstitusion bir dəyərdir. Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarını təmin etməklə yanaşı, fərqli fikirlərin və kimliklərin birgə yaşamasını da qoruyur.

Sonda iştirakçılar arasında fikir mübadiləsi aparılıb.

***Akif ƏLİYEV,* *"Azərbaycan"***

## Balakəndə meyvə istehsalı 3,4 min tondan çox artıb

**Balakən rayonunun meyvə bağlarında məhsul yığımı başa çatıb. Builki mövsümdə bağlardan 39 min 750,6 ton məhsul tədarük olunub. Meyvə istehsalı əvvəlki illə müqayisədə 3 min 459 ton artıb. Bu barədə AZƏRTAC-a Balakən Rayon Statistika İdarəsindən məlumat verilib.**



Bildirilib ki, hazırda rayonda meyvə bağlarının ümumi sahəsi 13 min 570,6 hektardır. Bu bağların 10 min 650,5 hektarını fındıq bağları təşkil edir.

Balakən rayonu xurma istehsalına görə respublikada qabaqcıl yerlərdən birini tutur. Cari ildə rayonda 8,1 hektarda yeni xurma bağları salınıb. Hazırda rayonda mövcud xurma bağlarının ümumi sahəsi 845,9 hektardır. Bu il rayonda 17 min 40 ton xurma istehsal olunub. Məhsul istehsalı əvvəlki illə müqayisədə 1241 ton artıb.

Ümumiyyətlə, bu il bağlardan 9334,3 ton fındıq, 4530 ton alma, 4433 ton armud, 743,5 ton şaftalı, 614,8 ton gavalı, 592 ton alça və digər meyvələr yığılıb.

## Yusif Məmmədəliyev — 120

# Əfsanəyə dönmüş alim ömrü

**Bu il Azərbaycan elminin tarixinə qızıl hərflərlə yazılmış bir şəxsiyyətin – görkəmli alim və ictimai xadim, Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120 illiyi qeyd olunur. Bu yubiley Azərbaycan elmi-mədəni yaddaşının, milli ziyalılıq ənənəsinin yenidən dəyərləndirilməsi baxımından xüsusi məna kəsb edir.**

Akademik Yusif Məmmədəliyev XX əsr Azərbaycan ziyalılığının ən mükəmməl nümunələrindən biri idi: dərin nəzəri düşüncə, yüksək təşkilatçılıq bacarığı, milli elmi-mədəni kimliyə sədaqət və universal dünyagörüşü onun şəxsiyyətində vəhdət təşkil edirdi. O, Azərbaycan elmini regional miqyasdan çıxarıb qlobal elmi müzakirələrin fəal iştirakçısına çevirmiş, kadr potensialını gücləndirmiş, respublikanın ən strateji sahələrindən biri olan neft-kimya kompleksinin elmi bazasını formalaşdırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 iyul 2025-ci il tarixli sərəncamı bu görkəmli alimin fəaliyyətinə dövlət tərəfindən verilən yüksək qiymətin bariz nümunəsidir. Sərəncamda vurğulandığı kimi: “Akademik Yusif Məmmədəliyev Azərbaycan elminin yetirdiyi parlaq simalardandır. Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alimin qiymətli sənaye məhsullarının alınması üçün böyük tətbiqi əhəmiyyətə malik texnoloji proseslərin işlənib hazırlanmasında müstəsna xidmətləri vardır. Neft-kimya elmində mühüm hadisəyə çevrilən yüksək oktanlı aviasiya yanacaqları istehsalının yeni üsulunu kəşf etməsi Yusif Məmmədəliyevə şöhrət qazandırmışdır. Respublikada bir sıra elmi müəssisə və qurumların təşkili onun adı ilə bağlıdır”.

Akademik Yusif Məmmədəliyev 31 dekabr 1905-ci ildə Azərbaycanın çox qədim elm və mədəniyyət ocaqlarından biri olan Ordubad şəhərində dünyaya göz açmışdır. Onun ilk bilik ocağı 1911-1917-ci illərdə Ordubadda fəaliyyət göstərən özəl məktəb olmuşdur. Daha sonra gələcəyin görkəmli alimi təhsilini Ordubadda yeni tipli məktəbdə davam etdirərək həm klassik, həm də müasirləşən təhsil modelinin imkanlarından geniş şəkildə yararlanmışdır.

1918-ci ilin iyununda bölgədə baş verən faciəli hadisələr Yusif Məmmədəliyevin uşaqlıq taleyinə də təsirsiz ötüşməmişdi. Erməni daşnak dəstələrinin Ordubada hücumu zamanı atası Hacı Heydər ağa böyük çətinliklərlə ailəsini Təbriz şəhərinə aparmışdı. Məmmədəliyevlər bu şəhərdə 1918-1920-ci illərdə mühacir həyatı yaşamalı olmuşlar. Təbrizdə yaşadıqları dövrdə Yusif ingilisdilli məktəbdə təhsil almış, öyrəndiyi müasir biliklər və dil hazırlığı sonralar onun elmi dünyagörüşünün genişlənməsinə xüsusi təsir göstərmişdir.

1920-ci ildə ailəsi ilə birlikdə yenidən Ordubada qayıdan Yusif artıq daha yetkin, geniş dünyagörüşünə malik bir gənc idi. O, 1921-ci ildə yerli gimnaziyanı əla qiymətlərlə bitirmiş və öz doğma şəhərində ibtidai məktəbdə müəllim kimi fəaliyyətə başlamışdır. Cəmi 16 yaşı olan gəncin müəllimlik kimi yüksək məsuliyyət tələb edən bir işə başlaması onun həm savadının, həm də intellektual və mənəvi yetişkənliyinin göstəricisi idi.

### Universitet illəri: yeni elmi baxışların formalaşması

1920-ci illər Azərbaycan üçün çalxantılı, lakin intellektual canlanma ilə zəngin bir dövr idi. Belə bir tarixi mərhələdə Azərbaycan gənclərinin elmə axını xüsusilə diqqət çəkirdi. Yusif Məmmədəliyev 1926-cı ildə Ali Pedaqoji İnstitutun Təbiət fakültəsini müvəffəqiyyətlə bitirərək elmi fəaliyyətə möhkəm nəzəri baza ilə qədəm qoydu. Bu ali məktəbdə onun formalaşmasına təsir edən ən mühüm amillərdən biri professorlar S.Hüseynov və M.Xanlarov kimi tanınmış kimyaçı alimlərin tələbəsi olması idi.

Elmin sərhədlərini genişləndirmək istəyən Yusif Məmmədəliyev 1929-cu ildə yüksəliş üçün mühüm addım ataraq M.Lomonosov adına Moskva Dövlət Universitetinin Kimya fakültəsinə daxil olur. Burada o, yalnız SSRİ-nin deyil, həm də Avropanın ən nüfuzlu kimya məktəblərinin davamçıları olan professor N.D.Zelinski və A.A.Balandindən dərs alır.

Yusif Məmmədəliyev Moskva Dövlət Universitetinin “Üzvi kataliz” ixtisası üzrə ilk məzunlarından biri kimi tarixə düşmüşdür. Bu ixtisas həmin dövrdə kimya elminin müasir istiqamətlərindən sayılırdı.

1931-ci ildə Yusif Məmmədəliyev Zelinskinin rəhbərliyi ilə öz ilk böyük elmi işini – “Etilenin katalitik hidrogenləşməsinin kinetikasının öyrənilməsi” mövzusundakı tədqiqatını müvəffəqiyyətlə başa çatdırır. Bu əsər onun elmi yaradıcılığının başlanğıc nöqtəsi olmaqla yanaşı, gələcəkdə kataliz və neft-kimya sahəsinə gətirəcəyi fundamental yeniliklərin də xəbərçisi olur.

Universitet illərində onun diqqətini xüsusilə üzvi kimya, daha dəqiq desək, aromatik və alifatik karbohidrogenlərin çevrilmə mexanizmləri, kataliz və reaksiya kinetikası cəlb etmişdi. Bu sahələrdə yüksəkixtisaslı kimyaçı mütəxəssis kimi formalaşmış Yusif Məmmədəliyev 1932-ci ildə elmi fəaliyyətinə doğma vətənində davam etməyə qərar vermişdi. O, həmin il Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda üzvi kimya kafedrasının müdiri təyin olunmuşdu. Bu, gənc alim üçün həm yeni nəsil mütəxəssislərin hazırlanması, həm də elmi axtarışların təşkili baxımından mühüm mərhələ idi.

Yusif Məmmədəliyevin elmi yaradıcılığının əsas istiqaməti həmin dövrdən etibarən neft kimyası olmuşdur. Buna görə alim bir ildən sonra fəaliyyətini ölkənin aparıcı elmi mərkəzlərindən olan Azərbaycan Neft Elmi-Tədqiqat İnstitutunda (indiki AR ETN Neft-Kimya Prosesləri İnstitutu) davam etdirmişdi. Bu institut onun sadə tədqiqatçıdan akademik səviyyəsinə qədər elmi yüksəlişində həlledici rol oynamışdır. Alim fəal şəkildə elmi məqalələr dərc edir, kataliz, karbohidrogenlərin quruluşu, onların çevrilmə reaksiyaları və yeni sintez metodları kimi neft kimyasının əsas problemlərini araşdırırdı.

Yusif Məmmədəliyevin elmi irsinin mühüm hissəsini Azərbaycanda neft və qazın ilk dəfə dərindən və sistemli tədqiqi təşkil etmişdi. Hidrogenləşmə, dehidrogenləşmə və hidratlaşma reaksiyaları üzrə əldə etdiyi nəticələr həm nəzəri kimyanın, həm də sənaye istehsalının inkişafına ciddi təsir göstərmişdi.

Yusif Məmmədəliyev həmçinin neft qazlarının ayrılması, xlorlaşdırılması, etilen və asetilenə çevrilməsi üzrə çoxşaxəli istiqamətlər yaratdı. Doymamış qazların bromlaşdırılması və hidratlaşması üzrə yeni reaksiyalar, hidrogen sulfidlə karbohidrogenlərin qarşılıqlı təsiri kimi tədqiqatlar qaz kimyasının inkişafına mühüm töhfə verdi və yeni halogenli birləşmələrin sintezi üçün baza yaratdı. Onun metodları əsasında Azərbaycanda halogenli karbohidrogenlərin istehsalı üçün iri sənaye və pilot qurğular quruldu və bu, SSRİ kimya sənayesində böyük texnoloji sıçrayışa səbəb oldu.

Yüksək elmi nüfuzun nəticəsi olaraq, 1938-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Şurası Yusif Məmmədəliyev haqqında son dərəcə nadir qərar qəbul etdi: neft qazlarının kimyası üzrə fundamental tədqiqatlarını, onların nəzəri ümumiləşdirilməsini və strateji əhəmiyyətli praktiki nəticələrini nəzərə alaraq, ona dissertasiya müdafiəsi olmadan kimya elmləri namizədi elmi dərəcəsi verildi. Belə imtiyaz yalnız müstəsna elmi yenilikləri ilə seçilən ən istedadlı alimlərə tətbiq edilirdi.

### II Dünya müharibəsi dövründə strateji əhəmiyyətli kəşflər

II Dünya müharibəsi təkcə siyasi-hərbi qarşıdurma deyil, həm də elmi-texnoloji yarış idi. Bu dövr Yusif Məmmədəliyevin elmi fəaliyyəti üçün xüsusi mərhələ oldu. Onun araşdırmaları həm Azərbaycan neft-kimyasının inkişafını müəyyənləşdirdi, həm də müharibənin gedişinə birbaşa təsir göstərdi.

Müharibə illərində SSRİ üçün əsas problemlərdən biri aviasiya benzini və partlayıcı maddələrin fasiləsiz, yüksəkkeyfiyyətli istehsalı idi. Məhz bu ağır şəraitdə Yusif Məmmədəliyevin tədqiqatları həlledici rol oynadı. Alimin mühüm nailiyyətlərindən biri məhz çox aşağı donma temperaturuna malik yüksək oktanlı aviasiya benzininin sintezi olmuşdur. Onun rəhbərliyi ilə hazırlanmış katalitik yanacağın oktan ədədi 120-yə çatdırılmışdı ki, bu da həmin dövr üçün rekord göstərici idi. Bu yanacaq təyyarələrin gücünü artırır, yüksəkliklərdə sabitliyi təmin edir və ağır iqlim şəraitində donma riskini minimuma endirirdi. Məhz onun elmi yenilikləri sayəsində Bakı neftayırma zavodları müharibə illərində cəbhəni milyon tonlarla yüksəkkeyfiyyətli benzinlə təmin edə bildi. Azərbaycan nefti bazasında istehsal olunan yanacaq sovet aviasiyasının gücünü artıraraq faşizm üzərində qələbənin əldə olunmasında mühüm amillərdən birinə çevrildi.

1943-cü ildə alim qeyd edilən nəticələri əks etdirən doktorluq dissertasiyasını müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsi və professor adını almışdır.

Yusif Məmmədəliyevin müharibə illərində göstərdiyi xidmətlər yüksək elmi səviyyədə qiymətləndirilmiş, o, əldə etdiyi nailiyyətlərə görə 1946-cı ildə Dövlət (Stalin) mükafatına layiq görülmüşdür.



Görkəmli alim Azərbaycan elmi tarixində fundamental tədqiqatları ilə yanaşı, yüksəksəviyyəli elmi təşkilatçılığı ilə seçilən nadir şəxsiyyətlərdəndir. O, elmi məktəblərin formalaşması, tədqiqat infrastrukturunun qurulması, gənc alimlərin yetişdirilməsi və Azərbaycan elminin beynəlxalq elmi məkana inteqrasiyası istiqamətində gördüyü işlərlə bütöv bir dövrün inkişaf xəttini müəyyən etmişdir. Kimya elminə verdiyi töhfələrə görə 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçilərindən olması və akademik seçilməsi Yusif Məmmədəliyevin milli elmdə aparıcı rolunu təsdiqləyirdi.

Y.Məmmədəliyev Elmlər Akademiyasının yaradılması və strukturunun formalaşmasında mühüm rol oynamış, bir sıra elmi-tədqiqat institutlarının təşkili və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə rəhbərlik etmişdir. Neft-kimya və fizikanın problemlərinin müəyyənləşdirilməsi, torpaqşünaslıq və biologiya üzrə əsas elmi mərkəzlərin qurulması onun Elmlər Akademiyasının prezidenti olduğu (1947-1950, 1958-1961) dövrdə əsas prioritetlərdən olmuşdur.

Akademikin kəşfləri kosmosun fəthində də rol oynamışdır. Onun təklif etdiyi metodla alınan yüksəkkeyfiyyətli raket yanacaqlarından Yerin ilk süni peykinin buraxılmasında və raketlərin kosmosa uçuşunda istifadə edilmişdir. Təsadüfi deyildir ki, buna görə kimyaçı alimi Qələbə paradına və Yuri Qaqarinin kosmosa ilk uçuşu münasibətilə təşkil olunan ali tədbirə dəvət etmişdilər.

Görkəmli alim 1954-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinə rəhbərlik edərkən bu elm və təhsil ocağı inkişaf etmişdir.

Alimin təşkilatçılıq fəaliyyəti ittifaq səviy-yəsində də yüksək dəyərləndirilirdi. 1945-1946-cı illərdə SSRİ Neft Sənayesi Nazirliyinin Elmi-Texniki Şurasının rəhbəri, 1951-1954-cü illərdə Azərbaycan SSR EA-nın Fizika-Kimya Elmləri və Neft Bölməsinin akademik-katibi kimi idarəçilik sahəsində yeniliklər tətbiq etməsi onun elmi nüfuzunu daha da möhkəmləndirmişdir.

Akademiyaya prezidentliyi dövründə böyük alim ölkə üçün strateji əhəmiyyətli elmi ideyalar irəli sürürdü. Bu gün respublikanın elmi həyatında aparıcı rol oynayan bir çox institutun yaranması və inkişafı Yusif Məmmədəliyevin təşkilatçılığı ilə bağlıdır. Onun ən böyük layihələrindən biri Şamaxı Astrofizika Rəsədxanasının yaradılması və müasir avadanlıqlarla təchiz edilməsi olmuşdur.

Yusif Məmmədəliyev 1945-ci ildə yaratdığı Neft İnstitutunun və uzun müddət çalışdığı Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutunun və bir sıra kimya müəssisələrinin əsasında 1958-ci ildə akademiyanın tərkibində bu gün onun adını daşıyan Neft-Kimya Prosesləri İnstitutunu formalaşdırmışdır.

Böyük elm xadimi həmçinin Azərbaycanın tarixi-mədəni irsinin tədqiqinə xüsusi önəm vermişdir. Qobustan qayaüstü rəsmlərinə ilk elmi ekspedisiyanın təşkili, bu istiqamətdə sistemli tədqiqatların başlanması və sonradan Qobustanın UNESCO tərəfindən qorunan unikal mədəni-landşaft kimi tanınmasına gedən yolun açılması məhz onun təşəbbüsü ilə mümkün olmuşdur.

Yusif Məmmədəliyevin elmi fəaliyyətinin digər mühüm istiqaməti Azərbaycan əlyazmalarının qorunması idi. Onun təşəbbüsü ilə 1950-ci ildə Əlyazmalar Fondunun yaradılması milli mədəni irsin mühafizəsi baxımından tarixi əhəmiyyət daşıyır.

Görkəmli alim 1940-1950-ci illərdə kimya elmini Azərbaycanın strateji inkişafı üçün əsas sahələrdən biri hesab edir və onun sistemli şəkildə institutlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirirdi. Onun yetişdirdiyi kadrlar, o cümlədən elmi məsləhətçiliyi və rəhbərliyi ilə hazırlanmış 12 elmlər doktoru və 29 fəlsəfə doktoru bu dövrdə həm akademiyada, həm də sənayedə yüksək nüfuz qazanaraq Məmmədəliyev elmi məktəbinin ənənələrini yeni mərhələlərə daşıyırdı. Bu məktəb Azərbaycan kimya elminin bütöv bir epoxasını formalaşdıran geniş intellektual məkana çevrilmişdi.

Yusif Məmmədəliyevin təşəbbüsü ilə Azərbaycan SSR Elmlər Akademiyası nəzdində kimya elmi üzrə vahid koordinasiya sistemi yaradılmışdı və 1950-ci illərin əvvəllərində onun rəhbərlik etdiyi məktəb artıq SSRİ miqyasında tanınmağa başlamışdı.

Yusif Məmmədəliyevin ən mühüm xidmətlərindən biri də Azərbaycan kimya elmini sovet və dünya elmi mərkəzləri ilə əlaqələndirməsi idi.

### Elmi irs, nəşrlər və xatirəsinin əbədiləşdirilməsi

Akademik Yusif Məmmədəliyevin yazı üslubu da öz dövrü üçün innovativ sayılırdı: alim eksperimental nəticələrin təhlilini hər zaman konseptual çərçivəyə oturdaraq kimyəvi proseslərin mahiyyətini daha dərindən izah etməyə çalışırdı.

Böyük alimin elmi irsi 400-dən artıq elmi əsər, yüzlərlə publisistik yazı, 15 müəlliflik şəhadətnaməsi və patent, fundamental səciyyəli monoqrafiyalar və yüksək ixtisaslı mütəxəssislər üçün nəzərdə tutulmuş metodiki materiallardan ibarətdir.

Akademik Yusif Məmmədəliyev SSRİ ilə yanaşı, ABŞ, İtaliya, Fransa, İngiltərə, Polşa Xalq Respublikası, Macarıstan Xalq Respublikası və başqa ölkələrdə keçirilən qurultay, konqres və simpoziumlarda fəal şəkildə iştirak və məruzələrlə çıxış etmişdir.

1957-ci ildə SSRİ KP Siyasi Bürosunda dünyaşöhrətli alimin Nobel mükafatına namizədliyinin təklif edildiyi barədə məlumatlar vardır.

Yusif Məmmədəliyevin ictimai-siyasi fəaliyyəti də onun şəxsiyyətinə xas olan məsuliyyət, vətənpərvərlik və dövlətçilik düşüncəsinin təzahürü olmuşdur. O, Azərbaycan SSR Ali Sovetinin (4-cü çağırış, 1955-1959) və SSRİ Ali Sovetinin (5-ci çağırış, 1958-1961) deputatı mandatlarını daşıdığı illərdə elm və sənayenin inkişafını bir-biri ilə bağlı kompleks sistem kimi dəyərləndirir, bu sahələri dövlətin strateji maraqlarının mərkəzi hesab edirdi.

Akademik Yusif Məmmədəliyev “Lenin”, “Şərəf nişanı”, “Qırmızı Əmək Bayrağı” ordenləri və bir neçə medalla təltif edilmiş, Azərbaycan SSR-in “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Dünya kimya elminə və sənayesinə böyük töhfələr vermiş Yusif Məmmədəliyevin elmi və ictimai fəaliyyəti Azərbaycan tarixində xüsusi yer tutur. Ümummilli Lider Heydər Əliyev 1995-ci ildə alimin 90 illik yubileyində vurğulamışdır: “Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olub. O, öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr vermişdir”. Bu yüksək qiymət alimin elmi kəşflərinin strateji və beynəlxalq əhəmiyyətini bir daha təsdiqləyir.

16 sentyabr 1998-ci ildə Ulu Öndərin göstərişi ilə Bakı şəhərində, İstiqlaliyyət küçəsində, İsmailiyyə binasının yanında Y.Məmmədəliyevə möhtəşəm abidə qoyulmuşdur.

Akademik Yusif Məmmədəliyevin zəngin elmi irsi, təşkilatçılıq bacarığı və neft-kimya sahəsində yaratdığı böyük elmi məktəb bu gün də öz aktuallığını qoruyur. Onun adı milli intellektual gücün, elm mədəniyyətinin və yaradıcı düşüncənin simvolu olaraq yaşamaqda, yeni nəsil tədqiqatçılar üçün dəyərli nümunə, etibarlı istiqamətverici mənbə və gələcək inkişaf strategiyalarımız üçün dəyərli təməl olaraq qalmaqdadır.

***İradə HÜSEYNOVA,***
***akademik***

## *Görkəmli alimə ehtiram:*

# Professor Qəhrəman Qəhrəmanovun 100 illik yubileyi qeyd olunub



**Dekabrın 18-də Azərbaycan Tibb Universitetində Əməkdar elm xadimi, "Şöhrət" ordenli, tibb elmləri doktoru, professor Qəhrəman Mehdiqulu oğlu Qəhrəmanovun anadan olmasının 100 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib.**

Əvvəlcə Dövlət himnimiz səsləndirilib, Vətənimizin bütövlüyü və gələcəyi naminə canlarını qurban vermiş qəhrəman şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılmış mühüm bir ənənə olduğunu deyən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli bildirib: "Həmin ənənəyə əsasən, xalqımızın, elmimizin, təhsilimizin və səhiyyəmizin inkişafında əvəzsiz xidmətləri olan şəxsiyyətlərin xatirəsi daim ehtiramla yad edilir, yubileyləri yüksək səviyyədə keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ənənə Azərbaycan Tibb Universitetində də ardıcıl şəkildə qorunur və yaşadılır".

Professor Gəray Gəraybəyli çıxışında Qəhrəman Qəhrəmanovun həyat və fəaliyyətinə nəzər salaraq onu Azərbaycan tibb elminin korifeylərindən biri kimi səciyyələndirib. Qeyd edib ki, neyrofiziologiya və neyrokimya məktəbinin yaradıcısı olan Qəhrəman Qəhrəmanov bütün şərəfli ömrünü tibb elminin inkişafına, elmi həqiqətlərin üzə çıxarılmasına və gənc nəslin yetişdirilməsinə həsr edib: "1925-ci il dekabrın 26-da Zəngəzur mahalının Qafan rayonunun Qaradağlı kəndində dünyaya gələn Qəhrəman Qəhrəmanov saf əqidəsi, yüksək mənəvi keyfiyyətləri və zəngin intellekti ilə hər zaman örnək bir ziyalı idi. Gənclik illərində qarşısına çıxan görkəmli alimlər - Bahadur Eyvazov, Kamil Balakişiyev, Fuad Əfəndiyev, Mustafa Topçubaşov, Zülfüqar Məmmədov, Abdulla Qarayev və Əhəd Həsənov kimi şəxsiyyətlərin elmi və mənəvi təsiri onun elm yolunu düzgün müəyyənləşdirməsində mühüm rol oynayıb. Bir vaxtlar cərrah olmağı düşünən Qəhrəman Qəhrəmanov sonradan ömrünü fiziologiya elminin inkişafına həsr etməyi daha məqsədəuyğun hesab edib və bu seçim Azərbaycan tibb elmi üçün böyük qazanc olub. 1950-ci illərdən etibarən apardığı tədqiqatlar elmi ictimaiyyətdə böyük maraq doğurub. Azərbaycan Tibb İnstitutunu "qırmızı diplom"la bitirən Qəhrəman Qəhrəmanov 1958-ci ildə professor Abdulla Qarayevin rəhbərliyi altında namizədlik dissertasiyasını müdafiə edib. Onun bu işi interoreseptorlar və maddələr mübadiləsi sahəsində aparılan sonrakı tədqiqatlar üçün mühüm elmi baza yaradıb. Uzun illər Normal fiziologiya kafedrasında çalışan alimin elmi-pedaqoji fəaliyyəti daim yüksək qiymətləndirilib. O, "Səhiyyə əlaçısı" döş nişanı, "Əməkdar elm xadimi" fəxri adı, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı, bir sıra orden və medallar, o cümlədən müstəqil Azərbaycanın ali təltiflərindən olan "Şöhrət" ordeni ilə təltif edilib".

Professor Qəhrəman Qəhrəmanovun çoxsaylı elmi məqalələrin, monoqrafiyaların və dərsliklərin müəllifi olduğunu xatırladan rektor xüsusilə onun 2001-ci ildə nəşr edilən "Beynin və ürəyin sirlərinə pəncərələr" kitabının bu gün də fiziologiya sahəsində dəyərli mənbə kimi istifadə olunduğunu diqqətə çatdırıb. Bildirib ki, Qəhrəman Qəhrəmanov yalnız alim deyil, həm də geniş dünyagörüşə malik ensiklopedik bilikli bir ziyalı idi: "O, mühazirələrində tibb və fiziologiyanın ən son nailiyyətlərini tarix, fəlsəfə, poeziya və ədəbiyyatla ustalıqla əlaqələndirir, Nizami, Nəsimi, Tusi, Əl-Fərabi, İbn Sina kimi dahilərin fikirlərinə müraciət edərək tələbələrinə təkcə bilik deyil, həm də həyat fəlsəfəsi aşılayırdı".

Konfransda çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov professorun böyük elmi məktəb yaratdığını vurğulayaraq qeyd edib ki, Qəhrəman Qəhrəmanov ömrünün sonuna qədər fiziologiya sahəsində çalışıb, fəaliyyət göstərib, elmi-tədqiqat işləri aparıb, kitablar çap etdirib: "Hər bir tədqiqatçının, böyük alimin fəaliyyətinin zirvəsi onun yaratdığı elmi məktəbdir. Qəhrəman Qəhrəmanov da, sözün əsl mənasında, böyük bir elmi məktəb yaradıb və hesab edirəm ki, belə böyük alimlərimizin, mütəxəssislərimizin yubileylərinin keçirilməsi vacibdir. Çünki gənc nəsil elmimizin, səhiyyəmizin, təhsilimizin keçmişini yaxşı bilməlidir. Adətən belə insanlar haqqında danışanda həmişə deyirəm ki, bütün ömrünü öz xalqına, Vətəninə həsr etmiş insanların ömrü o xalqların ömrü qədərdir. Professor Qəhrəman Qəhrəmanov da məhz belə şəxsiyyətlərdəndir".

Səhiyyə nazirinin müavini Nadir Zeynalov isə Qəhrəman Qəhrəmanovun tələbəsi kimi xatirələrini bölüşərək, onun mürəkkəb fiziologiya elmini sadə və anlaşılan dildə izah etmək bacarığını xüsusi qeyd edib: "Qəhrəman müəllim bizə insan fiziologiyası fənni üzrə dərs deyirdi. İnsan fiziologiyası çox mürəkkəb bir elmdir. Əslində, fiziologiya insanın həyatıdır. Bizim fiziki və psixi sağlamlığımız fiziologiyadır. Bu elmin müasir nailiyyətlərinə baxmayaraq, hələ də qaranlıq məqamları qalır və hər il yeni kəşflər çıxır. Qəhrəman müəllim mürəkkəb elmi, insan fiziologiyasını biz tələbələrə asan, bizim başa düşə biləcəyimiz dildə izah edirdi və mühazirələri çox maraqlı keçirdi. Qəhrəman müəllim öz mühazirələrində, təbii ki, fiziologiyadan, elmi məsələlərdən, öz eksperimentlərindən, xüsusilə də elmi rəhbəri Anokin və onun təcrübəsindən maraqlı hadisələr danışardı. O vaxt internet yox idi, Qəhrəman müəllimin mühazirələri bizə fantastik məlumatlar kimi gəlirdi. Amma mühazirələr zamanı həm də ədəbiyyatdan, Azərbaycan tarixindən danışır, şeirlərdən misralar deyir və bunu fiziologiya ilə uzlaşdırırdı. Qəhrəman müəllimin əziz xatirəsinə belə bir möhtəşəm konfransın təşkil olunmasına görə universitetin rəhbərliyinə də təşəkkür edirəm".

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, ATU-nun Normal fiziologiya kafedrasının müdiri professor Arif Məmmədov görkəmli alimin həyat və elmi irsinə həsr olunmuş geniş məruzə ilə çıxış edib.

Professorlar İbadulla Ağayev və Paşa Qəlbinur xatirə çıxışlarında Qəhrəman Qəhrəmanovun Azərbaycan tibb elminə verdiyi əvəzsiz töhfələrdən danışıblar.

Konfrans zamanı professorun həyat və elmi fəaliyyətinə həsr olunmuş sənədli filmin təqdimatı da keçirilib.

Qəhrəman Qəhrəmanovun ailə üzvləri adından çıxış edən oğlu professor Aydın Qəhrəmanov atasının xatirəsinə göstərilən bu ehtirama görə universitetin rəhbərliyinə, o cümlədən tədbir iştirakçılarına dərin minnətdarlığını bildirib.

Elmi-praktik konfransın işi sessiyalarla davam edib.



# Gənclik



● Dövlət siyasəti



# Vətənə bağlı Azərbaycan gəncliyi

**Hər bir dövlətin əsas dayağı və gələcəyinin etibarlı təminatçısı vətəninə bağlı, sağlam düşüncəli, peşəkar bilik və bacarıqlara yiyələnməyə, müasir dövrlə ayaqlaşmağa maraq göstərən gəncləridir. Məhz belə bir gənc nəslin formalaşdırılması ölkənin davamlı inkişafında həlledici rol oynayır. Respublikamızda son illər əldə olunan nailiyyətlərdə gənclərin ön sıralarda yer alması dövlətin gənclər siyasətinin düzgün istiqamətdə aparıldığının bariz nümunəsidir.**

Ölkəmizdə ailə dəyərlərinin bu gün də qorunub saxlanılması gənclərin düzgün tərbiyəsində xüsusi rol oynayır. Valideynlərindən, ailə böyüklərindən ağsaqqal və ağbirçəklərə ehtiram, uşaqlara qayğı göstərən, hallalığı, əməyə sevgini həyatının qayəsinə çevirməyi, ölkəsinə, xalqına bağlılığı öyrənən, bu ruhda böyüyən gənclər həyatını düzgün qurmaqda çətinlik çəkmirlər. Çünki belə bir mühitdə boya-başa çatan gənclər milli-mənəvi dəyərlərə sadiq, vətəninə bağlı və cəmiyyətə faydalı fərdlər kimi yetişirlər.

Əlbəttə, gənclərin ailəsinə, cəmiyyətə, dövlətinə və xalqına faydalı şəxsiyyət kimi yetişməsində qeyd edilən amillərin əhəmiyyəti misilsizdir. Lakin eyni zamanda onların dünyagörüşünün genişlənməsində və sosial məsuliyyət hissinin formalaşmasında təhsil müəssisələrinin rolu əvəzsizdir. Məktəb şagirdlərə yalnız biliklər qazandırmır, həmçinin onları dövlətçilik ideyaları, vətəndaşlıq borcu və milli kimlik anlayışları ilə yaxından tanış edir. Bu isə gənclərin gələcək həyat yolunu daha uğurlu şəkildə seçmələrinə imkan yaradır.

Prezident İlham Əliyev gənclərlə görüşlərindən birində bildirib: "Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir".

Vurğulamaq yerinə düşər ki, dövlət tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü gənclər siyasəti onların potensialının üzə çıxarılmasına geniş şərait yaradır. Təqdim olunan imkanlar gənclərin öz bacarıqlarını reallaşdırmasına, yeni ideyalarla çıxışına və uğurlu nəticələr əldə etməsinə stimul verir. Məhz bu dəstəyin nəticəsidir ki, Azərbaycan gəncləri müxtəlif sahələrdə mühüm nailiyyətlər qazanırlar.

Ölkəmizdə gənclərlə bağlı qəbul edilən dövlət proqramları bu siyasətin əsas sütunlarını təşkil edir. 2007-ci il "Gənclər ili"nin elan olunması, 2011-ci ildə Gənclər Fondunun yaradılması, 2013-cü ildə respublikamızda ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi və "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiqlənməsi və icra olunmağa başlaması gənclərin cəmiyyət həyatında rolunun daha da gücləndirilməsinə xidmət edib. Bu təşəbbüslər Azərbaycan gəncliyini ölkənin gələcəyini qurmağa qadir əsas qüvvə kimi formalaşdırır.

Azərbaycan gəncləri milli ruhda tərbiyə olunaraq həyatın müxtəlif sahələrində uğurlar qazanmaları ilə fərqlənirlər. Dövlətimiz də, xalqımız da bu gənclərlə haqlı olaraq fəxr edir.

Uzaq olmayan keçmişimizdə - Qarabağ və Şərqi Zəngəzur Ermənistanın işğalı altında ikən bütün Azərbaycan xalqı düşmən əlində qalmış o torpaqlarının dərdi, həsrəti, nisgili ilə yaşayırdı.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində könüllü olaraq cəbhəyə yollanan, Qarabağ və Şərqi Zəngəzur torpaqlarını yağıların əsarətindən xilas etmək üçün sinəsini düşmən güllələrinə sipər edən əsgər və zabitlərimizin əksəriyyəti uşaqlıq çağlarından vətən sevgisi ilə böyüyən gənclərimiz idi. Onlar öz cəsurluq, qorxmazlıq və rəşadətləri ilə tarixi qəhrəmanlıq nümunəsi göstərdilər.

Vətən müharibəsi Azərbaycan gəncliyinin iradəsini və igidliyini bütün dünyaya nümayiş etdirdi. Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində düşmənin uzun illər boyu qurduğu istehkamlar darmadağın edildi, işğal altındakı torpaqlarımız azad olundu və ədalət bərpa edildi. Bu zəfər gəncliyimizin şücaət və fədakarlıq salnaməsində əbədi qalacaq.

Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi, Vətən uğrunda, torpaq uğrunda ölümə gedənlərin əksəriyyəti gənclər idi: "Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə getdilər və şəhid oldular, qazi oldular və müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi".

Azərbaycan gəncliyi yalnız döyüş meydanında deyil, həm də elm, təhsil, mədəniyyət və idman sahələrində də uğurlarını davam etdirir. Onlar yeni texnologiyaları mənimsəyir, elmi tədqiqatlarda nailiyyətlər qazanır, beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. Bu müvəffəqiyyətlər gənclərin həm milli dəyərlərə bağlılığını, həm də dünyaya açıq və yenilikçi olduqlarını sübut edir. Həmin gənclərimizin fəaliyyəti yalnız şəxsi uğurlar deyil, bütöv bir cəmiyyət üçün nümunədir. Onlar vətən sevgisini hər addımda, hər layihədə və hər təşəbbüsdə nümayiş etdirir, azərbaycançılıq ideallarını yaşadırlar.

Sevindirici, qürurvericidir ki, bu gün Azərbaycan gəncliyi yalnız keçmişin qəhrəmanlıqlarını xatırlatmaqla kifayətlənmir, həm də gələcəyin qurucuları kimi fəaliyyət göstərir. Onların iradəsi, enerjisi və fədakarlığı ölkəmizi daha da gücləndirir. Hər bir uğurlu addım, hər bir nailiyyət Azərbaycanın gələcəyinə inamı artırır və gəncliyimizin parlaq gələcəyinə zəmin yaradır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Yeni nəşrlər

# Paytaxt məktəblilərinin növbəti kitabı təqdim olunub

**Bu ilin əvvəlində Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə paytaxt məktəbliləri arasında "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda ənənəvi elmi-praktiki konfranslar keçirilib. Bu konfranslarda şagirdlər Azərbaycan tarixinin müxtəlif dövrləri barədə öz məqalələri ilə iştirak ediblər. Yekun konfransda rayonlar üzrə təqdim olunan yazıların ən yaxşıları seçilərək kitab şəklində çap olunması qərara alınıb. Artıq Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən qalib elan edilən mövzulardan ibarət "Heydər Əliyev və Azərbaycan tarixi" adlı növbəti kitab işıq üzü görüb.**




Bakı Şəhər İcra Hakimiyyətində Aparatın məsul işçilərinin, qalib seçilmiş məktəblilərin, onların elmi və bir sıra məktəblərin rəhbərlərinin, KİV nümayəndələrinin iştirakı və şagirdlərin özlərinin aparıcılığı ilə keçirilən təqdimat mərasiminin əvvəlində Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirin əvvəlində şagirdlər tariximizin müxtəlif dövrlərində mühüm rol oynamış böyük şəxsiyyətlərin obrazlarını canlandırıblar.

Təqdimat mərasimində çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, tarixi ərzində Azərbaycan ilk dəfədir ki, cənab Prezident İlham Əliyevin hakimiyyəti dövründə planetin ictimai-siyasi sistemində nüfuzlu oyunçu kimi çıxış edir, mədəni-idman həyatında artıq qəbul edilən əhəmiyyətli mərkəzə çevrilib. Bütün əldə edilən uğurların əsasında da dahi insanın, İlham Əliyevin şəxsiyyət faktoru dayanır. Qədim zamanlarda Azərbaycanda mövcud olan xanlıqlar qısa müddət yaşayıb, birləşə bilməyərək parçalanıb və süquta uğrayıblar. İndi isə Azərbaycan vahid dövlətdir. Bakı şəhərinin 2026-cı ilin "Dünya İdman Paytaxtı" elan olunması da buna əyani sübutdur. Bütün bu uğurların gənc nəslə təbliği mühüm əhəmiyyət kəsb edir.

Konfransda Səbail rayonu 329 nömrəli tam orta məktəbin direktoru Elnur Mirzəyev, Nəsimi rayonu 111 nömrəli tam orta məktəbin tarix müəllimi Natəvan Məmmədova, Səbail rayonu 132-134 nömrəli Təhsil Kompleksinin 10-cu sinif şagirdi Nurlanə Həsənli və başqaları çıxış edərək məktəblilərin, müəllimlərin bu layihəyə böyük maraq göstərdiklərini və həvəslə iştirak etdiklərini bildirdilər.

Qeyd olunub ki, konfranslarda şagirdlər Azərbaycan tarixinin müxtəlif dövrləri, o cümlədən Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan tarixindəki rolu, Vətən müharibəsində qazanılan şanlı Qələbə barədə öz məqalələri ilə çıxış edib, son nəticədə isə belə bir kitab işıq üzü görüb.

Ümumilikdə isə, Bakı şəhərinin 300-dən artıq orta məktəbini əhatə etməklə, 3000-dən çox şagirdin iştirak etdiyi rayon konfranslarında qalib olan 80 şagirdin referatı Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyilə çap olunan yeni kitaba daxil edilib.

Tədbirin sonunda qalib şagirdlərə sertifikatlar və referatları çap edilən kitablar, həmçinin onların elmi rəhbəri olan müəllimlərə kitablar təqdim edilib.

Ənənəvi xarakterli bu müsabiqənin növbəti illərdə də keçirilməsi nəzərdə tutulub.

*"Azərbaycan"*

● Sağlam nəsil, sağlam gələcək

# Bakının "Dünya İdman Paytaxtı" seçilməsi Azərbaycanın idman siyasətinə verilən qiymətdir

**Gündən-günə gözəlləşən Bakı şəhəri 2026-cı ildə "Dünya İdman Paytaxtı" elan olunub. Ölkəmizin paytaxtının mötəbər idman oyunlarına evsahibliyi etməsi üçün seçilməsi Azərbaycan dövlətinin, xüsusilə Prezident İlham Əliyevin müntəzəm olaraq idmana göstərdiyi diqqət və qayğının, geniş infrastruktur layihələri və sağlam həyat tərzini özündə əks etdirən siyasətin uğurlu nəticəsidir. Bir-birindən mötəbər beynəlxalq idman yarışlarına evsahibliyi etməsi ölkəmizin dünyadakı nüfuzunu daha da yüksəldəcək, gənclərimizin idmana olan həvəs və maraqlarını artıracaq.**






Bakının 2026-cı il üçün "Dünya İdman Paytaxtı" seçilməsi Azərbaycan dövləti və idmanımız üçün olduqca böyük uğurdur. Çünki bu titul şəhərin idman infrastrukturunu, beynəlxalq idman tədbirlərinə evsahibliyi etmək imkanlarını və idmanın inkişafına verdiyi töhfələri təsdiqləməklə yanaşı, eyni zamanda ölkənin idman siyasətinin uğurla aparıldığını göstərir. Yüksək əminlik hissi ilə qeyd etmək olar ki, Bakı qazandığı bu statusla idman sahəsində lider şəhər kimi çıxış edəcək və bundan sonra da yeni layihələrə cəlb olunacaq, beynəlxalq yarışlara evsahibliyi edəcək. Bütün bunlar isə ölkə gənclərinin sağlam həyat tərzi yaşaması ilə yanaşı, respublikamızın turizm və iqtisadiyyatına da müsbət təsir göstərəcək. Beynəlxalq yarışların davam etdiyi günlərdə dünyanın ürəyi Azərbaycanda döyünəcək. Bütün diqqətlər ölkəmizin paytaxtına yönələcək.

Xatırladaq ki, Azərbaycan bu təşəbbüsə 2024-cü ildə qoşulmuş və Bakının namizədliyi irəli sürülmüşdür. O zaman ölkəmizə gələn və idman həyatımızla yaxından tanış olan Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının (ACES) yaradıcısı Qian Fransisko Lupatelli mətbuat konfransında təəssüratlarını bölüşərək demişdir ki, bu şəhərdə gözəl təqdimat nümayiş etdirildi. Bakının 2026-cı ildə dünyanın idman paytaxtı seçiləcəyinə inanıram.

Nəhayət, gözlənilən gün gəlib çatdı. Bir neçə gün əvvəl Belçikanın paytaxtı Brüsseldə Bakının 100 ballıq şkala üzrə ən yüksək nəticəyə nail olması və zəngin idman ənənələri, maddi-texniki bazası, həmçinin beynəlxalq yarışları yüksək səviyyədə keçirmək üzrə böyük təcrübəsi nəzərə alınaraq, gələn il üçün dünyanın idman paytaxtı seçilməsi qərara alındı. ACES prezidenti Can Fransisko Lupattelli Bakının idmanın inkişafına daim böyük töhfələr verdiyini vurğulayaraq qeyd etdi ki, bu şəhər hər zaman keyfiyyətli idman obyektləri ilə fərqlənib.

Doğrudan da paytaxtımızın "Dünya İdman Paytaxtı" elan olunması indiyə qədər yüksək səviyyədə həyata keçirilmiş idman yarışlarındakı uğurların layiqli və məntiqi yekunudur. Çünki ölkəmizdə, xüsusilə də Bakıda keçirilmiş bütün mötəbər yarışlar həmişə yüksək səviyyədə təşkil olunub. Buna görə də paytaxtımızın qonaqları hər dəfə ölkəmizin təşkilatçılığından razılıq ediblər, xoş sözlər söyləyiblər.

Yaxşı xatırlayırıq ki, 10 il əvvəl "Bakı-2015" I Avropa Oyunlarında paytaxtımız qitənin 50-dən çox ölkəsinin ən güclü atletlərinin gərgin mübarizə meydanına çevrildi. Azərbaycan Avropa Oyunlarının ilk dəfə keçirildiyi ölkə kimi yaddaşlara həkk olundu. Ölkəmizin paytaxtında yarışlar keçirmək üçün hərtərəfli şəraiti olan bir-birindən gözəl idman sarayları var. Olimpiya Stadionu, Heydər Əliyev adına İdman Sarayı, Tofiq Bəhramov adına stadion, Milli Gimnastika Arenası, Bakı İdman Sarayı, Atıcılıq Mərkəzi və digər idman komplekslərində yarışların yüksək səviyyədə təşkil olunması ölkəmizin beynəlxalq nüfuzunu getdikcə artırır.

2017-ci ildə Bakı böyük bir idman bayramına - IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi. Həm I Avropa Oyunları, həm də IV İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə təşkil olundu. Təbiidir ki, bütün bunları dünya görürdü, beynəlxalq təşkilatlar yaxından izləyirdi. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkəsi kimi tanınır. İnamla deyə bilərik ki, bu, Prezident İlham Əliyevin 1997-ci ildən Milli Olimpiya Komitəsinə (MOK) rəhbərlik etməsinin nəticəsidir. Azərbaycanda idmanın və Olimpiya hərəkatının intibah dövrü məhz həmin vaxtdan başlayıb. Dövlət başçımızın idman sahəsinə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, idmançılarımız müxtəlif beynəlxalq yarışlarda cəsarətlə mübarizə apararaq qalib gəlir, qızıl medallar qazanırlar. Məhz bu qalibiyyətin, uğurların nəticəsidir ki, dünyanın ən mötəbər idman yarışlarında üçrəngli bayrağımız qaldırılır, Dövlət himnimiz səsləndirilir. İdmançılarımız uğurları və qələbələri ilə xalqımıza qürurlu anlar yaşadırlar.

Beynəlxalq təşkilatların paytaxtımıza verdiyi bu yüksək status bir daha onu göstərir ki, Azərbaycan mötəbər beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkili imkanlarına malik olan ölkədir. Azərbaycan bunu "Formula-1", Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, MDB Oyunları, dünya və Avropa çempionatları kimi nüfuzlu idman tədbirlərinə uğurla evsahibliyi etməklə nəyə qadir olduğunu sübut edib. Bütün bunlar onu deməyə əsas verir ki, Bakının 2026-cı ildə "Dünyanın İdman Paytaxtı" seçilməsi təsadüfi deyil. Doğma Bakı bu ada, bu şərəfə layiq şəhərdir. Növbəti dəfə də ona göstərilən etimadı yüksək səviyyədə yerinə yetirəcək.

Artıq "Dünya İdman Paytaxtı" titulu rəsmi olaraq Monakodan Bakıya təhvil verilib. Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının (ACES) baş katibi Huqo Alonso Kastanon Bakı şəhərinin "Dünya İdman Paytaxtı" ("World Capital of Sports") elan olunmasına həsr edilmiş rəsmi təqdimetmə mərasimindən sonra jurnalistlərə açıqlamasında bildirib ki, əsas məqsəd Azərbaycanda idmanı daha da kütləviləşdirmək və hər kəs üçün əlçatan etməkdir: "Əminəm ki, buna nail olacağıq. Əgər siz bədən tərbiyəsi və idmanla məşğul olsanız, bunun müsbət nəticələrini görəcəksiniz. Biz bilirik ki, ölkənizdə müxtəlif idman növləri üzrə böyük mötəbər tədbirlər keçirilir. Əminik ki, Bakı 2026-cı ilin "Dünya İdman Paytaxtı" kimi yaxşı nümunə olacaq".

Çox sevindirici haldır ki, paytaxtımız yalnız ona etimad göstərilən mötəbər beynəlxalq yarışların yüksək səviyyədə təşkili ilə fərqlənmir. Beynəlxalq tədbirlərlə yanaşı, ölkəmizin paytaxtında şəhər sakinlərinin asudə vaxtlarını səmərəli təşkil edilməsi məqsədilə də müntəzəm olaraq müxtəlif idman yarışları keçirilir. Şəhər sakinləri keçirilən bu yarışlardan zövq alır, təşkilatçılara minnətdarlıqlarını bildirirlər. Prezident İlham Əliyevin rəhbərliyi altında gündən-günə iqtisadi gücü artan dövlətimizin idman sahəsinə daim qayğı göstərməsi, müasir tələblərə cavab verən idman infrastrukturlarının yaradılması, sabahımız olan gənclərin sağlam böyüməsi üçün əlverişli şərait yaradır.

Böyük əminliklə demək olar ki, həmişə olduğu kimi, Bakı 2026-cı ildə də bu məsuliyyətli missiyanın öhdəsindən bacarıqla gələcək, Azərbaycanın idman ölkəsi olduğunu əməli işi, yüksək təşkilatçılığı ilə bir daha dünyaya göstərəcək. "Dünya İdman Paytaxtı" titulu gənclərimizin idmana olan marağını, həvəsini daha da artıracaq. İdman yarışlarında həmişə mübarizə aparmağa, zəfər qazanmağa hazır və qadir olan gənclərimiz sağlam ruhda böyüyəcək, dövlətimiz, xalqımız üçün dəyərli vətəndaş olacaqlar. Uğurları və zəfərləri ilə həmişə xalqımızı sevindirəcəklər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Azercell**

## abunəçilərinin nəzərinə!

18 yanvar 2026-cı il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) və fakturalı xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş "Bulud Cinema" xidməti ləğv ediləcək, o cümlədən "Simurq" xidməti üzərindən "Shou-biznes", "Afisha" və "Texno Dünyası" məzmun məlumatlarının təqdim edilməsi dayandırılacaq. Göstərilən tarix nəzərə alınaraq qeyd olunan məzmun məlumatları üzrə günlük (xidmətin ləğv ediləcəyi tarixdən 24 saat əvvəl) yenilənmələrə məhdudiyyət tətbiq ediləcək.

"Bulud Cinema" xidmətinin ləğv ediləcəyi tarix nəzərə alınaraq, xidmət üzrə növbəti aylıq, eləcə də günlük (xidmətin ləğv ediləcəyi tarixdən 24 saat əvvəl) yenilənmələrə məhdudiyyət tətbiq ediləcək. Həmin tarixədək xidmətə qoşulmuş istifadəçilər növbəti yenilənmə tarixinədək xidmətdən istifadə edə biləcəklər.

***Qeyd:*** Abunəçilər göstərilən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlər, tariflər və kampaniyalar barədə ətraflı məlumatı rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofislər, həftənin 7 günü, 24 saat fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə edə bilərlər.


## BİLDİRİŞ

"ALE Caspian" MMC-yə (VÖEN: 2002637001) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsində e-2-2(113) - 8252/2025 saylı iş üzrə məhkəmə baxışı 22.12.2025-ci il saat 15:00-a təyin edilmişdir. Debitor və kreditorlar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

**Ünvan: AZ1040, Bakı şəhəri Bakıxanov qəsəbəsi, O.Əfəndiyev küçəsi.**

**Əlaqə telefonu: (012) 525-20-74**

***Bakı Kommersiya Məhkəməsi***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


## "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

"Bank Respublika" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 21 yanvar 2026-cı il tarixində saat 12:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.

***Gündəlikdəki məsələlər:***

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin ilin maliyyə nəticələri və mükafatın ödənilməsi haqqında.
4. Xalis mənfəətinin bölüşdürülməsi haqqında.

# Ruben Vardanyanın məhkəməsində prokuror çıxış edib, təqsirləndirilən şəxsin ömürlük azadlıqdan məhrum olunmasını təklif edib



Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 18-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Məhkəmə iclasının əvvəlində təqsirləndirilən şəxs Ruben Vardanyan müdafiəçisi ilə məhkəmə zalında danışmaq istədiyini deyib.

Sədrlik edən onun vəsatətini təmin edib. Təqsirləndirilən şəxs müdafiəçisi Emil Babışov ilə danışdıqdan sonra ittiham tərəfi çıxış edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev çıxışında xatırladıb ki, Vardanyan Ruben Karlenoviçin təqsirləndirilməsinə dair cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb. Bir ilə yaxın müddət ərzində çoxsaylı məhkəmə iclasları keçirilib, sənədlər və sübutlar tədqiq edilib, zərərçəkmiş şəxslər və şahidlər dindirilib. İttiham tərəfi hesab edir ki, hazırkı proses üzrə təqsirləndirilən şəxsin törədilmiş çoxsaylı cinayət əməlləri üzrə təqsiri təqdim edilmiş sübutlar əsasında öz təsdiqini tapıb.

İttiham tərəfi bildirib ki, Ermənistan işğal etdiyi Azərbaycan Respublikasının suveren ərazilərində formalaşdırdığı cinayətkar birliyə R.Vardanyanın qoşulana qədər və həmin mərhələdən sonrakı müddətlərdə törədilmiş cinayətlərdən bəhs ediləcək. V.Əliyev deyib: "Bütün bunlar ona görə vacibdir ki, Ruben Vardanyan qeyd edilən cinayətkar birliyə qoşularkən əməlinin ictimai təhlükəliliyini başa düşür, bu cinayətkar təşkilat tərəfindən Azərbaycan dövlətinə və xalqına qarşı hansı cinayətlərin törədildiyini bilir, həmin cinayətlərin törədilməsinə növbəti mərhələlərdə davam edirdi".

Vurğulanıb ki, Ermənistan dövləti və onun formalaşdırdığı cinayətkar birlik tərəfindən 1988-1994-cü illər ərzində Azərbaycan Respublikasının Xankəndi şəhəri, Kəlbəcər, Şuşa, Laçın, Xocalı, Xocavənd, Zəngilan, Cəbrayıl, Qubadlı rayonları, Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndi, Qazax rayonunun Bağanis-Ayrım, Aşağı Əskipara, Xeyrimli, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara kəndləri, Ağdam, Füzuli rayonlarının rayon mərkəzləri və bir sıra kəndləri, Tərtər rayonunun bir sıra kəndləri işğal edilib. Həmin ərazilər dağıdılmaqla, yandırılmaqla, talan edilməklə və digər üsullarla xüsusi mülkiyyətə ziyan vurulub, insanlar evlərindən didərgin salınıblar.

Prokuror çıxışının davamında R.Vardanyanın Xankəndi şəhərində yerləşmiş ofisinə baxış keçirilməsi barədə 26.10.2023-cü il tarixli baxış protokolu, əməliyyat məlumatları və digər sənədlərə istinad edərək bildirib: "Həmin sənədlərlə təsdiq edilib ki, təqsirləndirilən şəxs 2020-ci ilin dekabr ayının əvvəllərində cinayətkar birliyə qoşulub".

Dövlət ittihamını müdafiə edən prokuror çıxışında R.Vardanyanın Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı hərbi əməliyyatlarda iştirak etmiş "VoMa" adlı terror təşkilatının yaradıcısı Vartanov Vladimir (Vova) Levanoviçlə (Levani) əlaqələrindən, "WhatsApp" mobil tətbiqi vasitəsilə danışıqlarından də bəhs edib. Qeyd edilib ki, "VoMa" 2013-cü il yanvarın 11-də təsis edilib, Ermənistan Respublikasında, eləcə də Azərbaycan Respublikasının vaxtilə işğal altında olmuş ərazilərində cinayətkar birliyin (təşkilatın) struktur bölməsi kimi mütəşəkkil dəstə şəklində fəaliyyət göstərib.



Keçirilmiş əməliyyat tədbirləri zamanı V.Vartanovun mütəmadi əlaqə saxladığı R.Vardanyanla "VoMa" terror təşkilatında döyüşçülərin və təlimatçıların hazırlanması, təlimlərin təşkili və bununla da Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin Azərbaycan Silahlı Qüvvələrinə qarşı terror aktlarını törətmələri və döyüşlərdə iştirak etmələrinə dair müzakirələr apardıqları, eləcə də bu terrorçu təşkilatın və onların üzvlərinin maliyyələşdirilməsini R.Vardanyanın öz üzərinə götürdüyü müəyyən edilib.

Prokuror bildirib ki, R.Vardanyana elan edilmiş növbəti ittiham Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçməsi ilə bağlıdır. İttihama əsasən o, cinayətkar birliyin ümumi cinayətkar niyyət və məqsədlərinə uyğun olaraq 2022-ci ilin sentyabr ayında cinayətkar birliyin (təşkilatın) tərkibinə daxil olan mütəşəkkil dəstə halında, xarici ölkə vətəndaşı olaraq Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini dövlətin nəzarət-buraxılış məntəqələrindən kənar, Ermənistan Respublikasının ərazisindən Laçın rayonu istiqamətində qanunsuz keçərək Azərbaycan ərazisinə daxil olub, Azərbaycanda məskunlaşıb. İttiham tərəfi hesab edir ki, həmin əməlin törədilməsi də məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla öz təsdiqini tapıb. Belə ki, Ruben Vardanyan saxlanılarkən üzərində olmuş əşyalara 27 sentyabr 2023-cü il tarixdə baxış keçirilməsi haqqında protokoldan görünür ki, onun 1 ədəd qara rəngli çantasında digər əşya və sənədlərlə yanaşı, təqsirləndirilən şəxsə məxsus Ermənistan Respublikasının "AU319012" nömrəli xarici pasportu və ona məxsus sürücülük vəsiqəsi aşkar edilib və baxış keçirilib.

Bundan əlavə, davam edən baxış zamanı R.Vardanyanın 2022-ci ilin sentyabr ayının əvvəllərində qanunsuz olaraq Azərbaycan Respublikasının Qarabağ bölgəsinə gəldikdən sonra bir neçə dəfə ölkə ərazisini tərk edərək müxtəlif ölkələrə getdiyi və sonradan yenidən qanunsuz olaraq Azərbaycan Respublikası ərazisinə qayıtdığı müəyyən edilib. Həmin sənəddə onun Azərbaycan Respublikasına qanuni daxil olmasını təsdiq edən hər hansı qeyd, möhür və sair müəyyən edilməyib.

Həmçinin R.Vardanyan Xankəndiyə gəldikdən sonra onun maliyyələşdirməsi nəticəsində Vətən müharibəsində Azərbaycan Respublikasının Ermənistanın işğalından azad etdiyi suveren ərazilərinin hüdudlarında minalanma işləri aparılmağa başlanıb. Həmin minalar Laçın yolu vasitəsilə Ermənistandan Azərbaycanın vaxtilə işğal altında olan ərazilərinə gətirilib. Xankəndidə yaşayan ermənilər minalanma işlərinin R.Vardanyan gələndən sonra geniş vüsət aldığını bildiriblər.

Bundan başqa, R.Vardanyanın maliyyələşdirməsi nəticəsində Xankəndi ətrafında hərbi anbarlar təşkil edilib. Həmin anbarlarda onun muzdla saxladığı Ermənistandan gələn hərbçilər, Qarabağdan seçdiyi hərbçilər fəaliyyət göstərib. Anbarlara R.Vardanyan tərəfindən gətirilmiş xeyli sayda silah və döyüş sursatları, habelə pilotsuz kvadrakopterlər və digər pilotsuz uçuş aparatları yerləşdirilib.

Qeyd edilib ki, R.Vardanyana elan edilmiş və məhkəmə iclasında tədqiq edilmiş sübutlarla öz təsdiqini tapmış növbəti ittiham "Nemezis-2" terror əməliyyatının başlanılması təşəbbüsünü irəli sürməsi ilə bağlı olub.

Bundan başqa, R.Vardanyanın cinayətkar birliyin (təşkilatın) ümumi cinayətkar niyyəti və məqsədlərinə uyğun olaraq Ermənistanın siyasi-hərbi rəhbərliyinin dəstəyi və nəzarəti altında Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində qanunsuz və beynəlxalq hüquq normalarına zidd fəaliyyət göstərən qeyd edilən cinayətkar birliyə (təşkilata) daxil olan silahlı birləşmələri hərbi texnika ilə təchiz etmək məqsədilə 2023-cü ilin sentyabr ayı ərzində yükqaldırma qabiliyyəti 180 kq, istifadə məsafəsi 70 km təşkil edən, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının istehsalı olan "Malloy" tipli pilotsuz uçuş aparatlarının (PUA) alınması istiqamətində fəaliyyət göstərdiyi də məlum olub.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev çıxışının davamında təqsirləndirilən şəxsə ittiham olunduğu hər bir cinayət əməlinə görə təyin edilməli cəzaya dair dövlət ittihamını müdafiə edən prokurorların təkliflərini səsləndirib.

V.Əliyev çıxış zamanı həmçinin təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndlərin çıxarılmasını, irəli sürülmüş bəzi ittihamlarla müqayisədə təqsirləndirilən şəxsin əməllərinin daha yüngül məsuliyyət nəzərdə tutan cinayət qanununun norması ilə tövsif edilməsini məhkəməyə təklif edib.

Təklif olunub ki, Vardanyan Ruben Karlenoviç Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə cinayətlərinə görə az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin. Cəzasını həbsxanada çəksin.

Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan - 2023-cü il sentyabrın 27-dən hesablansın. Onun barəsində seçilmiş həbs qətimkan tədbiri hökm qanuni qüvvəyə minənədək dəyişdirilməsin.

Məhkəmənin növbəti iclası dekabrın 26-na təyin olunub.

**BEYNƏLXALQ HƏYAT**

# ABŞ Beynəlxalq Cinayət Məhkəməsinin iki hakiminə sanksiya tətbiq edib

ABŞ Dövlət Departamenti Beynəlxalq Cinayət Məhkəməsinin iki hakiminə qarşı sanksiya tətbiq edib.




Bu barədə ABŞ Dövlət katibi Marko Rubio açıqlama yayıb. O bildirib ki, Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) iki hakimi - Gürcüstandan Qoça Lordkipanidze və Monqolustandan Erdenebalsuren Damdin İsrailin razılığı olmadan məhkəmənin İsrail vətəndaşlarını araşdırmaq, həbs etmək, saxlamaq və ya məhkəməyə vermək səylərində birbaşa iştirak ediblər. O əlavə edib ki, BCM bütün millətlər üçün təhlükəli bir presedent yaradan İsraili hədəf alan siyasiləşdirilmiş fəaliyyətlərdə iştirak etməyə davam edib. "Biz ABŞ və İsrailin suverenliyini pozmaq və ABŞ və İsrail vətəndaşlarını səhvən BCM-in yurisdiksiyasına cəlb etmək istiqamətində səlahiyyətlərdən sui-istifadəyə dözməyəcəyik",- deyə Rubio vurğulayıb.

# Tayvan məsələsi Çin-ABŞ münasibətlərində keçilməz olan ilk qırmızı xətdir

Çin ABŞ-nin Tayvana müasir silahların kütləvi şəkildə satılması planına qarşıdır və onu pisləyir.



Çinin Xarici İşlər Nazirliyi (XİN) bu addımın "Vahid Çin" prinsipini, Çinin suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü pozduğunu, Tayvan boğazında sülhə və sabitliyə zərər vurduğunu, "Tayvanın müstəqilliyi"ni müdafiə edən separatçı qüvvələrlə son dərəcə səhv bir siqnal göndərdiyini bildirib.

"Adadakı separatçı qüvvələr müstəqillik proqramlarını inkişaf etdirməyə çalışır, vergi ödəyicilərinin pullarını silah almağa xərcləyirlər və hətta Tayvanı "barıt çəlləyi"nə çevirmək riski daşıyırlar", - deyən nazirliyin rəsmisi Quo Ciakun əlavə edib ki, bu cür addımlar təkcə "Tayvanın müstəqilliyi"nin qaçılmaz uğursuzluğunu dayandırmayacaq, həm də Tayvan boğazında hərbi münaqişə təhlükəsini daha da sürətləndirəcək. ABŞ-nin Tayvanı silahlandırması "müstəqillik" proqramını asanlaşdırmaq əvəzinə, əks-nəticə verəcək, Tayvanı Çini cilovlamaq üçün istifadəsi isə heç vaxt uğurlu olmayacaq. Nazirlik rəsmisi deyib ki, Tayvan məsələsi Çinin əsas maraqlarının mərkəzindədir və Çin-Amerika münasibətlərində keçilməz olan ilk qırmızı xətdir. "Biz ABŞ-ni Tayvanı silahlandırmaq kimi təhlükəli addımlarını dərhal dayandırmağa çağırırıq. Çin öz dövlət suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq üçün qətiyyətli və güclü addımlar atacaq", - deyə Çin XİN rəsmisi bildirib.

Qeyd edək ki, ABŞ Çinin Tayvan adasına 11 milyard dollarlıq silah satışını təsdiqləyib. Müqaviləyə ümumi dəyəri 4,05 milyard dollar olan HIMARS çoxməqsədli raket sistemlərinin, eləcə də 4 milyard dollarlıq özüyeriyən haubitsaların tədarükü daxildir.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar dövlət qulluqçusu

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4121
Sifariş 2541

Qiyməti 60 qəpik